www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22 iyul 2015-ci il Çərşənbə № 157 (6185) Qiyməti 40 qəpik

**Xəbər**

## "Oliqarxqeyt işi"ndə şok həbs - səfirin qardaşını tutdular

yazısı səh.7-də

**Gündəm**

### Prezident Mətbuat Şurasının İdarə Heyətinin üzvləri ilə görüşdü



Dövlət başçısı ölkədəki vəziyyəti, hadisələri bir çox hallarda mətbuatdan izlədiyini və dərhal reaksiya verdiyini deyib

yazısı səh.4-də

### Azərbaycana qarşı "sülhməramlı" tələsi - Rusiya bizdən nə istəyir?

yazısı səh.10-da

### İntiqam Əliyev həbsdə qaldı

yazısı səh.3-də

### Beynəlxalq Banka Elman Rüstəmovun adamı gətirilir

yazısı səh.8-də

### Orxan Kərimli dəfn olundu

yazısı səh.3-də

### XİN başçılarının qəfil Moskva görüşünün yeni detalları

yazısı səh.12-də

### Obamanın üç böyük uğuru: bin Laden, Kuba və İran...

yazısı səh.11-də

### FTX azərbaycanlı silah baronunu yaxaladı

yazısı səh.10-da

### Bütöv Azərbaycan ideyası tarixmi oldu?

yazısı səh.9-da

### Bakının sahibsiz itlər problemi...

yazısı səh.15-də

### Lamiyə Quliyeva yenə Aslan Aslanovu ittiham etdi

yazısı səh.14-də

### AZAL biletlərin qiymətini endirdi

yazısı səh.2-də

# Binəqədinin başçısı ölkədən niyə getdi?

# XALƏDDİN İBRAHİMOVA HƏBS TƏHLÜKƏSİ-ÖZƏL XƏBƏRLƏR

Başçının ailəsi 1 aydır Almaniyadadır; görüş yeri olaraq Paris seçilib; Məmmədov-İsgəndərov klanı haqda şok bilgilər...




yazısı səh.5-də

# Qərb Azərbaycana görə Kremlə qarşı ssenari hazırlayır

Rusiyanın yeni "böyük müharibə" hazırlıqlarının ilginc pərdəarxası; Putinin yeganə qorxusunun arxasında nə durur?

yazısı səh.9-da



### Mirzə Sakit qohumlarının həbsinə görə Əli Kərimlini ittiham etdi

yazısı səh.3-də



### Türkiyədə terroru qadın paltarı geyinən kişi törədib

yazısı səh.11-də



*Rauf Arifoğlu:*

### ""Prezident bizi oxuyur"

yazısı səh.6-da

# AZAL biletlərin qiymətini endirdi

**"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti (AZAL) özünün aşağı büdcəli sərnişindaşıma xəttinin (lou-kost istiqamətlər), həmçinin aviaşirkətin bütün mövcud reysləri üzrə təyyarələrdə aşağı tarifli yerlərin yeni blokunun tətbiqinə başlayır.**

AZAL-ın mətbuat xidmətindən verilən məlumata görə, iyulun 16-da "Azərbaycan Hava Yolları" QSC-nin İdarə heyətinin Dövlət Mülki Aviasiya Administrasiyası ilə birgə keçirilmiş iclasında İdarə Heyətinin sədri Cahangir Əsgərov hər bir hava xəttinin tariflərinin dərindən təhlil edilməsini, aviabiletlərin qiymətinin aşağı salınması yollarının araşdırılmasını, güzəştlərin tətbiq edilmə şərtlərinin və tariflərin yeni tənzimləmə mexanizminin işlənib hazırlanmasını tapşırıb.

İyulun 21-də "Azərbaycan Hava Yolları" QSC-nin İdarə Heyətinin kollegiyasının qapalı iclası keçirilib. İclasda aviabiletlərin cari qiymətlərinin azaldılması üçün təkliflər dinlənilib. Məruzələr nəticəsində bu məsələ ilə bağlı konkret tədbirlərin görülməsinə qərar verilib.



Xüsusilə "Azərbaycan Hava Yolları" aşağıda göstərilən istiqamətlər üzrə özünün aşağı büdcəli sərnişindaşıma xəttini (lou-kost istiqamətlər) yaradacaq:

- Bakı-Antalya-Bakı - bu ilin avqustundan başlayaraq həftədə 3 dəfə;

- Bakı-İstanbul-Bakı - bu ilin sentyabrından başlayaraq hər gün 1 uçuş;

- Bakı-Moskva-Bakı - bu ilin oktyabrından başlayaraq hər gün 2 uçuş;

- Bakı-Dubay-Bakı - bu ilin oktyabrdan başlayaraq hər gün bir uçuş.

Bundan əlavə, "Azərbaycan Hava Yolları"nın bütün mövcud reyslərində cari qiymətlərin azaldılmasına yönəlmiş yeni tarif siyasətinin tətbiq olunmasına dair qərar qəbul edilib. Bu tarif siyasəti yeni lou-kost istiqamətlərə şamil olunmayacaq.

Beləliklə, bu il avqustun 1-dən etibarən "Azərbaycan Hava Yolları"nın bütün istiqamətləri üzrə minimal cari ekonom-klass tariflərinə 20 faiz endirim tətbiq olunacaq. Bu tarif üzrə satılan biletlərin sayı təyyarədə yerlərin 30 faizini təşkil edəcək. Bu zaman sərnişinlər üçün bütün növ ekonom-klass xidmətləri saxlanılacaq.



## Bakı rayon maşınlarının üzünə bağlanır

**Bakıda Avropa Oyunları ərəfəsində paytaxt küçələrində nəqliyyatın normal hərəkətinin təşkil edilməsindən, şəhər qeydiyyatı olmayan və yük avtomobillərinin hərəkətinə məhdudiyyətlərin tətbiq olunması nəticəsində Bakı şəhərində atmosfer havasının avtomobillərin ixrac etdiyi dəm qazlarından təmizlənməsi, tıxacların aradan qaldırılması, eləcə də nəqliyyat səs-küyünün azalmasından razılıq edən və bu vəziyyətin il boyu saxlanılması ilə bağlı şəhər sakinlərinin Baş Dövlət Yol Polisi İdarəsinə və Nazirlər Kabinetinin Yol Hərəkətinin Təhlükəsizliyi Komissiyasına çoxsaylı müraciətləri əsasında Komissiyada kompleks tədbirlər planı hazırlanır.**

Bu barədə "Trend"ə Daxili İşlər Nazirliyi Respublika Baş Dövlət Yol Polisi İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Kamran Əliyev deyib.

K.Əliyev qeyd edib ki, icazə verilən maksimum kütləsi 5 tondan artıq olan yük avtomobillərinin, habelə ayrı-ayrı regionlarda qeydiyyatda olan minik avtomobillərinin saat 07:00-dan 22:00-dək paytaxta girişinə müəyyən məhdudiyyətlər tətbiq ediləcək: "Məhdudiyyətlər tətbiq ediləcək avtomobillərin minik və ya yük təyinatlı olmasından asılı olmayaraq, onlar paytaxtın giriş hissələrində təşkil edilmiş və hər bir lazımi şəraitlə təchiz olunmuş duracaqlarda ödənişsiz saxlanılmaqla sürücülərin və sərnişinlərin avtobuslarla ən yaxın metro stansiyasına çatdırılması təmin olunacaq. Düşünürük ki, hərəkət iştirakçıları vaxta, yanacağa, təmirə qənaət baxımından daha əlverişli olan ictimai nəqliyyat vasitələrinə, Sumqayıt sakinləri isə həm də sentyabr ayının 15-dən onların istifadəsinə veriləcək sürətli qatarlardan istifadəyə üstünlük verəcək və paytaxtda nəqliyyat sıxlığının aradan qaldırılması nəticəsində yollardakı rahat və fasiləsiz hərəkətdən məmnuniyyətlə yararlanacaqlar".

## Jurnalistlər üçün tikilən bina barədə sərəncam- 5 milyon...

**Mətbuat işçiləri üçün yaşayış binasının tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycanın prezidenti İlham Əliyev sərəncam imzalayıb. "Qafqazinfo"nun məlumatına görə, Azərbaycan mətbuat işçilərinin mənzil şəraitinin yaxşılaşdırılması üçün inşa olunan yaşayış binasının tikintisinin davam etdirilməsi məqsədilə Prezidentin ehtiyat fondundan prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 5 milyon manat ayrılıb.**

Maliyyə Nazirliyinə müvafiq məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.

## General Rəhimov: "Korrupsiyada vətəndaşlar özü günahkardır"

**İyulun 21-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində Azərbaycan Milli Mətbuatının 140 illiyinə həsr olunmuş tədbir keçirilib.Tədbirdə çıxış edən xidmətin rəisi, general-leytenant Arzu Rəhimov rəhbərlik etdiyi qurumun mətbuatla sıx əməkdaşlıq etdiyini vurğulayıb. Xidmət rəisi qeyd edib ki, jurnalistlər neqativ hallara qarşı Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə hərəkət etməlidirlər:**

"Hər bir qurumda çatışmazlıqlar var. O cümlədən də bizim xidmətdə müəyyən çatışmazlıqlar nəzərə çarpır. Bu sahədə də korrupsiya halları istisna deyil. Lakin buna ilk növbədə vətəndaşlar şərait yaradır. Belə hallara qarşı biz birlikdə mübarizə aparmalıyıq. Kim belə halla rastlaşsa, xəbər verməlidir".

A.Rəhimov daha çox işində dəqiq və düzgün olan media nümayəndələri ilə əməkdaşlığa üstünlük verdiklərini açıqlayıb: "Bizimlə kim dostluq edirsə, onunla dostluq edirik və edəcəyik. Kim dövlətçilik naminə bizə işimizdə kömək edirsə, biz də onlara işində dəstək olmağa hazırıq. Bəzi KİV-lər var ki, biz onları tədbirlərimizə bilərəkdən dəvət etmirik. Çünki deyilən sözləri təhrif edir, bilərəkdən dəyişdirərək insanlara çatdırırlar. Bəzi jurnalistlər bilmədiklərini yazanda bu, vətəndaşlar arasında narahatlıq və narazılığa səbəb olur".

Mediada hərbi-vətənpərvərlik istiqamətində az təbliğat aparıldığını deyən A.Rəhimov bu sahəyə daha çox diqqət artırılmasını arzuladığını deyib.


**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**




## Gömrük məntəqəsinin rəis müavini həbs olunub

**Ermənistanda gömrük məntəqəsinin rəis müavini saxlanılıb. APA-nın Ermənistan mətbuatına istinadən verdiyi məlumata görə, "Baqrataşen" gömrük məntəqəsinin rəis müavini Artuş Qulyan böyük məbləğdə rüşvət alarkən tutulub.**

A. Qulyan "Amalya Adamyan" şirkərinin Fransa və İtaliyadan gətirilən ətirləri şəxsi yük kimi sənədləşdirib.

Qeyd edək ki, hadisə 2007-ci ildə baş verib. A. Qulyan sözügedən şirkətin nümayəndələrindən 5,3 min dollar rüşvət alıb. İttihamın irəli sürülməsinə baxmayaraq, A. Qulyan ədalət mühakiməsindən qaça bilib.

Bu ilin aprel ayında A. Qulyan könüllü polisə təslim olub. O, həbs olunub. Cinayət işi artıq məhkəməyə göndərilib.

## Həmsədrlər Vyanada sonrakı addımları müzakirə edirlər

ATƏT-in Minsk Qrupunun həmsədrləri Vyanada səfərdədir.

APA-nın məlumatına görə, bu barədə amerikalı həmsədr Ceyms Uorlik özünün twitter səhifəsində yazıb.

C. Uorlik bildirib ki, ATƏT-in Minsk Qrupunun üzvləri ilə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli və danışıqlar prosesinə dair növbəti addımları müzakirə edəcəklər.

Diplomat daha sonra Bakıya gələcəklərini açıqlayıb.

## Premyer Liqanın püşkü atılıb

**Azərbaycan Premyer Liqasının 2015/16 mövsümünün püşkatma mərasimi keçirilib. Apasport.az saytının məlumatına görə, tədbir AFFA-nın inzibati binasında baş tutub.**



Mərasimə çempionatın 10 iştirakçısı qatılıb. Püşkatma zamanı ilk turun 5 cütü müəyyənləşib.

Bu cütlər avqustun 8-9-da üz-üzə gələcəklər.

Azərbaycan Premyer Liqası
I tur
8-9 avqust
"Qəbələ" - "Qarabağ"
"Xəzər Lənkəran" - "İnter"
"Rəvan" - "Sumqayıt"
"Zirə" - AZAL
"Neftçi" - "Kəpəz"

Qeyd edək ki, sayca 24-cü olan ölkə çempionatında çıxış edəcək 10 komandadan 7-si ötən mövsümdə elitada çıxış edənlərdi. Bunlar "Qarabağ", "İnter", "Qəbələ", "Neftçi", AZAL, "Xəzər Lənkəran", "Sumqayıt" klublarıdı. "Kəpəz", "Rəvan" yenidən Premyer Liqada çıxış edəcəksə, "Zirə" debütantdı. Çempionatın tam təqvimi isə bir neçə gün sonra dəqiqləşəcək.

## Cahangir Hacıyevin klubu rəsmən dağıldı

**"Simurq"un gələn il Topaz Premyer Liqasında iştirak etməyəcəyi dəqiqləşib. "Qafqazinfo" xəbər verir ki, bu barədə Zaqatala klubunun mətbuat xidmətinin rəhbəri Rüstəm Allahverdiyev öz facebook səhifəsində yazıb.**

Belə ki, o, "artıq rəsmi şəkildə yaza bilərsiniz. "Simurq" Topaz Premyer Liqasında iştirak etməyəcək" statusunu paylaşıb.

Qeyd edək ki, "Simurq" 2005-ci ildə yaradılmışdı.

## Bakı sakininin evindən külli miqdarda saxta pul çıxdı

**Daxili işlər orqanları tərəfindən cinayətkarlıqla mübarizə sahəsində daha bir uğurlu əməliyyat tədbiri həyata keçirilib və nəticədə külli miqdarda saxta əsginaz dövriyyədən çıxarılıb. Bu barədə "Report"a Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən məlumat verilib.**

Belə ki, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə Bakı şəhər sakini Bəxtəvər Şiralıyevin oğurladığı "VAZ 2107" markalı nəqliyyat vasitəsini satmaq istəməsi barədə əməliyyat məlumatı daxil olub. Dərhal həyata keçirilən əməliyyat tədbiri ilə fakt təsdiqini tapıb və o saxlanılıb.

Araşdırmalar zamanı həmin avtomaşının Suraxanı rayonunda yaşayan Ceyhun Qocayevə məxsus olduğu və bu il iyul ayının 14-də Bəxtəvər Şiralıyev tərəfindən qaçırıldığı müəyyən edilib.

Üzərinə baxış zamanı B.Şiralıyevdən 450 manat saxta əsginazgötürülüb. Əməliyyat-axtarış tədbirlərinin davamı olaraq onun yaşadığı mənzilə də baxış keçirilib və oradan ümumilikdə 24 800 manat, o cümlədən 130 ədəd 100 manatlıq, 236 ədəd isə 50 manatlıq saxta əsginaz aşkar olunaraq götürülüb.

Faktla bağlı Baş İdarənin İstintaq şöbəsində cinayət işi başlanıb, zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## Jurnalistlərə daha bir mükafat

### Demokratik İslahatlar Partiyası media nümayəndələrini təltif etdi

**Demokratik İslahatlar Partiyasının Siyasi Şurası Milli Mətbuatın yaranmasının 140 illiyi münasibətilə "Həsən bəy Zərdabi və Nəcəf Nəcəfov ənənələrinin davamı və inkişafı uğrunda" mükafata 2015-ci ildə layiq görülən şəxslərlə bağlı qərarını açıqlayıb. Partiyanın mətbuat xidmətinin məlumatına görə, qərara əsasən sözügedən mükafat və müvafiq diplomlar bu şəxslərə təqdim olunacaq:**

**1.** Xaqani Səfəroğlu (strateq.az ttp://strateq.az/) - ictimai-siyasi mövzularda peşəkar məqalələrinə görə

**2.** Dilqəm Əhməd ("Gündəlik teleqraf" qəzetinin redaktoru) - Azərbaycanın milli-mədəni və ədəbiyyat tarixinə dair araşdırmalarına görə

**3.** Cəmilə Ələkbərova ("Exo" qəzeti) - sosial və humanitar sahədəki obyektiv yazılarına görə.

Xatırladaq ki, bu təsisatda məqsəd əsası 1875-ci ildə Həsən bəy Zərdabi tərəfindən qoyulmuş, 20-ci əsrin 90-cı illərində Nəcəf Nəcəfov tərəfindən yenidən canlandırılmış Azərbaycan mətbuatının maarifçilik ənənələrini davam etdirməyə, azad, demokratik və peşəkar mətbuatın formalaşması uğrunda yorulmadan mübarizə aparmağa, obyektiv və məsuliyyətli sözə üstünlük verməyə həvəsləndirməkdir. Mükafat DİP tərəfindən 2008-ci ildə təsis olunub.

Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə sözügedən mükafata layiq görülən jurnalistləri və Azərbaycan KİV-nin bütün nümayəndələrini 22 iyul - Milli Mətbuat Günü və milli mətbuatımızın yaranmasınını 140 illiyi münasibətilə təbrik edir!

❑ **Vüqar MURAD**

## Kreml Saakaşvilinin Azərbaycan bəyanatını şərh etmədi

**Kreml Gürcüstanın sabiq prezidenti, Ukraynanın Odessa vilayətinin hazırkı qubernatoru Mixail Saakaşvilinin Rusiya prezidenti Vladimir Putinin Gürcüstana, Ukraynaya, Baltikyanı ölkələrə və Azərbaycana münasibəti barədə dediklərini "heç bir halda şərh etmək istəmir".**

Virtualaz.org saytı Rusiya KİV-lərinə istinadən xəbər verir ki, Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov M.Saakaşvilinin sözlərinə inanmağın "şübhəli olduğunu" bildirib.

"Saakaşviliyə nə dərəcədə inanmağın lazım olduğu yəqin hamıya aydındır. Bu, onun hazırda gəlişinə qadağa qoyulmuş öz ölkəsində də yaxşı məlumdur, digər ölkələrdə, o cümlədən Rusiyada da..." - deyə D.Peskov bildirib.

Qeyd edək ki, M.Saakaşvili Britaniyanın "The İndependent" qəzetinə müsahibəsində rus əsgərlərinin Azərbaycan və Gürcüstana qayıtmasını istisna etmədiyini bildirmişdi.

YENİ MÜSAVAT
N 157 (6185) 22 iyul 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# İntiqam Əliyev həbsdə qaldı

## HMC rəhbərinin prosesi yekunlaşıb; Rəsul Cəfərovun növbəti məhkəməsi iyulun 31-də olacaq

**İyulun 21-də Bakı Apelyasiya Məhkəməsində Hüquq Maarifçiliyi Cəmiyyətinin (HMC) sədri İntiqam Əliyev və İnsan Haqları Klubunun sədri Rəsul Cəfərovun şikayətlərinə baxılıb. HMC rəhbərinin şikayəti təmin edilməyib və proses yekunlaşıb.**

Bu barədə müsavat.com-a İ.Əliyevin vəkili Fəxrəddin Mehdiyev məlumat verib: "Apelyasiya Məhkəməsinin baxış iclası başa çatdı. Birinci instansiya məhkəməsinin qərarı qüvvədə saxlanıldı. Verdiyimiz vəsatətlərin heç biri təmin olunmadı. İntiqam Əliyev çıxış etdi. Təəssüf ki, hakim tərəfindən tez-tez mikrofon söndürülürdü. İlk vəsatətimiz o oldu ki, İntiqam Əliyev şüşə arxasından çıxarılsın. Onun hüquqlarının təmin olunmasına çalışdıq. Çox təəssüf ki, vəsatətimiz rədd edildi. Ona görə də onunla məsləhətləşmək üçün fasilələr oldu. Sonra proses iştirakçıları zaldan çıxarıldı. Bu hal iki dəfə təkrar olundu. Çox gərgin bir məhkəmə prosesi oldu. Qərardan Ali Məhkəməyə müraciət edəcəyik".



İntiqam Əliyev



Rəsul Cəfərov

**Rəsul Cəfərovun növbəti prosesi isə iyulun 31-nə təxirə salınıb. Vəkil Fariz Namazlı "Yeni Müsavat"a açıqlamasında verdikləri vəsatətlərin təmin olunmamasından danışdı:** "Rəsul Cəfərov barəsində ev dustaqlığının seçilməsi, onun müdafiəçilərinin yanında əyləşməsi və məhkəmə istintaqının aparılması ilə bağlı üç vəsatət verdik. Məhkəmə istintaqının aparılması ilə bağlı vəsatətdə xahiş etdik ki, zərərçəkmişlərin statuslarına xitam verilsin. Çünki zərərçəkmişlərdən ikisi hökmdən apelyasiya şikayəti veriblər ki, biz zərərçəkən deyilik. Hər hansı bir zərər görmədiklərini bildiriblər. İşə xitam verilməsini xahiş ediblər. Zərərçəkən şəxslər Ağır Cinayətlər Məhkəməsində də ifadə verərkən, eyni sözləri demişdilər. Birinci instansiya məhkəməsinə Rəsul Cəfərovun günahsız olduğunu sübut edəcək çoxlu sayda faktlar təqdim etmişdik. Həmin sübutlar məhkəmə tərəfindən araşdırılmadı. Yalnız ittiham tərəfinin sübutları araşdırıldı. Nəticədə 6 il yarım həbs cəzası verildi. Həmin sübutlar Apelyasiya Məhkəməsi tərəfindən araşdırılmalı idi ki, obyektiv qərar verilsin. Təəssüf ki, məhkəmə heç bir vəsatətimizi təmin etmədi. Məhkəmə istintaqı keçirilmədən apelyasiya şikayətinin yekun iclasını təyin etdi. Bu məhkəmə də iyulun 31-də olacaq".

Qeyd edək ki, Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə İntiqam Əliyev 7 il 6 ay, Rəsul Cəfərov isə 6 il 6 ay azadlıqdan məhrum ediliblər.

❑ **Cavanşir ABBASLI**

# Mirzə Sakit qohumlarının həbsinə görə Əli Kərimlini ittiham etdi

## "Bu formada siyasət aparmaq həmin partiyanın qaragüruh və əcinnə yığnağı olmasından xəbər verir"

**Hazırda Fransada mühacirətdə yaşayan "Azadlıq" qəzetinin baş redaktoru, "Azərbaycan saatı" verilişinin müəllifi Qənimət Zahidin qardaşı oğlanlarının həbs edilməsi barədə məlumat vermişdik. Əvvəlcə iyulun 18-də Q.Zahidin Şamaxının Meysəri kəndində yaşayan qardaşı oğlu Tural Zahidov saxlanaraq Şamaxı polisinə aparılıb. O, polis əməkdaşını təhqir etməkdə suçlanaraq 30 sutka həbs cəzası alıb.**

İyulun 20-də isə baş redaktorun daha bir qardaşı oğlu Rüfət Zahidov Narkotiklərlə Mübarizə İdarəsinə aparılıb. Hələ də ondan xəbər yoxdur. Qənimət Zahid baş verənləri siyasi fəaliyyəti ilə əlaqələndirib.

Q.Zahidin qardaşı, hazırda Belçikada mühacir həyatı yaşayan **Mirzə Sakit** "Yeni Müsavat"a açıqlamasında həbs olunan qohumlarından xəbərsiz olduğunu bildirdi: "Hələ heç bir məlumatımız yoxdur. İş günü olmadığına görə dostlar da bir məlumat ala bilməyiblər. Əgər onu o idarəyə aparıblarsa, demək, şərləmə olacaq və bunu əvvəlcədən hesablayıb ora aparıblar".



**M.Sakit qohumlarının qınağına tuş gələcəklərini istisna etmir:** "Qohumların hələ başlarına öz işlərinə qarışıb. Yəqin ki, iradlar sonra olar. Amma hələlik onların azad olunacaqları ümidi ilə yaşayırlar. Bu gedişlə təzyiqlərin davam etməsi intensivləşəcək, elə təzyiqlər olacaq ki, bu həbslər şükürlü olacaq. Adama ən doğma olan adamdan intiqam alarlar. Həm də bunu ona görə edirlər ki, qohumlar arasında narazılıq yaransın".

**Müsahibimiz qohumlarının həbsinə səbəb olan AXCP rəhbərliyi barədə də sərt açıqlamalar verdi:** "Əslində ağlı olan adam belə yarıtmaz siyasətdən yayınar, bu formada siyasət aparmaq həmin partiyanın qaragüruh və əcinnə-şəyatin yığnağı olmasından xəbər verir. Mənim elə bir çıxış vasitəm yoxdur ki, bu təzyiqlərin qarşısını ala biləm. Amma məlum hadisələrin baiskarları pul qazanmaq istəyindən imtina etməlidirlər. Kimlərsə beş manat pul qazanmaq istəyində olacaqlar və özlərini də "Vətən təəssübkeşləri" qismində camaata sırıyacaqlar, adamlar da bunlara görə həbsxanalara düşəcəklər. AXCP bu xalqın işıq yolu idi, amma o partiyanı Əli Kərimli işğal etdikdən sonra manyaklar yığnağına çevrildi. Xalqın adından danışmağa onların qəti ixtiyarları yoxdur. Qeyd edim ki, mən onların manyaklıqları haqda hələ heç nə yazmamışam, bundan sonra yazacam".

**M.Sakit qohumlarının həbsi ilə bağlı AXCP rəhbərliyinə müraciət etmək fikrində olmadığını da qeyd etdi:** "Mən manyaklara necə müraciət edim? Onlara beş il bundan öncə müraciət etmişəm, özü də başda Əli olmaqla, bütün funksionerlərə müraciət etdim. Lakin bu adamların necə vicdansız olduqlarını gördüm və sevindim ki, bu murdarlara hakimiyyət qismət olmur və olmayacaq da. Hər halda, o "zombi"lərin ifşa olunmasına çalışacağam. Onlar elə düşünürlər ki, hakimiyyəti tənqid etməklə xalqa sevgilərini bildirirlər və xalq da bunların bu aktyorluğuna inanacaq. Azərbaycan dövlətinə belə insanların rəhbərlik etməyindənsə, Ukraynadakı manyak Çikatilo rəhbərlik etsə daha ədalətli olar".

**Mirzə Sakit cəmiyyətə müraciət etdi:** "Fürsətdən istifadə edib, burdan cəmiyyətimizə səslənərək deyirəm ki, əziz soydaşlarımız, sizlər haqlı olaraq Milli Şuranın, əslində isə "Yurd təşkilatı"nın keçirdiyi maskaradlı mitinqlərə qoşulmursunuz. Həmin mitinqlərin təşkilatçılarının dabbağda gönlərinə bələdəm, bələlərinin Azərbaycana rəhbərlik etməsini Tanrımız bizlərə qismət etməsin. Bu adamlar nəinki Qurandan, eləcə də konstitusiyadan don geyinsələr belə, onların məkrli sözlərinə heç vaxt aldanmayın. Bunların məqsədləri yalnız çirkinliklər yolunda siyasət aparmaqdan ibarətdir".

❑ **Cavanşir ABBASLI**



# Orxan Kərimli dəfn olundu

## Anası Elza Kərimova: "Ondan sonra yaşaya bilməyəcəyəm..."

**İyulun 21-də Təhsil Nazirliyinin maliyyə şöbəsinin keçmiş müdir müavini, şair Əli Kərimin oğlu Orxan Kərimli ilə vida mərasimi keçirilib. Mərhum "Qurd qapısı" qəbiristanlığında torpağa tapşırılıb. Dəfn mərasimində media və ictimaiyyət nümayəndələri iştirak edib.**



**Mərhumun qardaşı Paşa Əlioğlu** "Yeni Müsavata"a deyib ki, fevral ayında Orxanda xərçəng xəstəliyi aşkar edilib: "Müalicəsi üçün əlimizdən gələni elədik. Artıq gec idi. Xərçəng bütün bədəninə yayılmışdı. Son 2 həftə yataq şəraitində qaldı".

**Mərhumun anası Elza Kərimova** hələ də oğlunun həyatda olmadığına inana bilmədiyini dedi: "Ürəyindən əməliyyat keçirmişdi. Üç dəfə stend qoyulmuşdu Orxanın ürəyinə. Əvvəl bilmirdim xəstə olduğunu. Heç özünün də xəbəri yox idi. Sağlam idi. O düz eləmədi, kəfənimi əlimdən aldı. Ondan sonra yaşaya bilməyəcəyəm..."



**Müsavat Partiyasının üzvü Tural Abbaslı xatirələrini belə bölüşdü:** "Orxan Kərimli ilə Kürdəxanı təcridxanasında eyni vaxtda olmuşuq. Onu həmin dövrdə saxta ittihamla həbs etmişdilər. Biz neçə ay məhbəs dostu olmuşuq. 15 yaş kiçik olduğuma görə məsləhətlər verərdi mənə. Məhbəsdə olduğumuz zaman siyasətdən, iqtisadiyyatdan danışardıq. Zamanında siyasətlə də məşğul olmuşdu. O dönəmdə də Orxanın ürəyində problemi var idi. Yəqin həbs dönəmində də həmin problemlər qalıb. Allah rəhmət eləsin. Ailə üzvlərinə bir daha başsağlığı verirəm. Son qəmləri olsun".

Xatırladaq ki, Təhsil Nazirliyinin İqtisadiyyat şöbəsinin sabiq müdir müavini Orxan Kərimli 2011-ci il iyunun 6-da həbs olunmuşdu. Ona Cinayət Məcəlləsinin 308 (vəzifə səlahiyyətlərindən sui-istifadə ) və 311-ci (rüşvət alma - passiv rüşvətxorluq) maddələri ilə ittiham irəli sürülmüşdü. Orxan Kərimli ittihamları böhtan adlandırırdı və günahsız olduğunu deyirdi. Səhhəti ilə bağlı azadlığa buraxılan O.Kərimli 2012-ci il iyunun 27-də Mərkəzi Klinikada üçüncü dəfə ürəyindən əməliyyat olunmuşdu. Qeyd edək ki, mərhumun iki övladı, 14 yaşlı oğlu və 5 yaşlı qızı var.

"Yeni Müsavat" qəzetinin kollektivi Orxan Kərimlinin ailəsinə dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin.

❑ **Məğrur SALMANOV**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 157 (6185) 22 iyul 2015



## Prezident Mətbuat Şurasının İdarə Heyətinin üzvləri ilə görüşdü

### Dövlət başçısı ölkədəki vəziyyəti, hadisələri bir çox hallarda mətbuatdan izlədiyini və dərhal reaksiya verdiyini deyib

**İyulun 21-də Azərbaycan prezidenti İlham Əliyev milli mətbuatın yaradılmasının 140 illiyi münasibətilə Mətbuat Şurasının İdarə Heyətinin üzvləri ilə görüşüb. AzərTAc xəbər verir ki, Azərbaycanın milli maraqlarının qorunmasındakı qətiyyətli mövqeyinə görə dövlət başçısına Mətbuat Şurasının xüsusi mükafatı təqdim olunub.**




Prezident İlham Əliyev milli mətbuatın yaranmasının 140 illiyi münasibətilə jurnalistləri və xalqımızı təbrik edib, bayram ərəfəsində bir çox jurnalistlərin orden, medal və fəxri adlarla təltif olunduğunu deyib. "Biz fəxr edə bilərik ki, milli mətbuatımızın böyük tarixi var və ancaq müstəqillik dövründə Azərbaycan mətbuatı tam azad və müstəqil şəkildə fəaliyyət göstərib" deyən prezident İlham Əliyev 1998-ci ildə Heydər Əliyevin fərmanı ilə senzuranın ləğv edildiyini və bunun mətbuat tarixində yeni dövr açdığını bildirib.

Bu gün mətbuatımızın inkişaf baxımından yeni səviyyəyə qalxdığını deyən dövlətimizin başçısı artıq 12 ildir fəaliyyət göstərən Mətbuat Şurasının işini yüksək qiymətləndirib. Prezident bu gün ölkədə yüzlərlə qəzet-jurnalın, televiziya kanalının fəaliyyət göstərdiyini, ölkəmizin tam müstəqil siyasət yürütdüyünü, bunun təməlində isə xalqımızın maraqlarının dayandığını deyib.



Prezident bildirib ki, mətbuat hər zaman strateji maraqları müdafiə etməli, milli maraqları beynəlxalq müstəvidə qorumalıdır.

Son illərdə bu istiqamətdə milli mətbuatda ciddi dönüşün yarandığını deyən dövlət başçısı ölkədəki vəziyyəti, hadisələri bir çox hallarda mətbuatdan izlədiyini və dərhal da reaksiya verdiyini bildirib. Prezident bundan sonra da ölkədə baş verən hər hansı pozuntu hadisəsinə qarşı mətbuatı fəal olmağa çağırıb. Azərbaycanın beynəlxalq mövqeləri ilə bağlı fikirlərini bölüşən prezident xarici mediada ölkəmizə qarşı aparılan ədalətsiz kampaniyanın ciddi tədbirlər ərəfəsində daha da əlaqələndirilmiş xarakter aldığını bildirib, buna səbəb kimi isə Azərbaycanın müstəqil siyasətini, ölkəmizin uğurlarını göstərib. Bildirib ki, erməni lobbisinin və digər dairələrin ölkəmizə qarşı apardığı qaralama kampaniyası Azərbaycanın daxili və xarici siyasətinə heç bir təsir etmir. "Biz yolumuzdan dönməyəcəyik və ölkəmizi uğurla inkişaf etdirəcəyik" deyən dövlət başçısı Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində ciddi tədbirlərin görüldüyünü və bu sahədə medianın rolunun artırılmasının vacibliyini bildirdi.

Mətbuat Şurasının sədri Əflatun Amaşov milli mətbuatın yaradılmasının 140 illiyi ərəfəsində media təmsilçilərinin bir qrupunun fəxri adlarla təltif olunmasına görə jurnalistlər adından dövlət başçısına minnətdarlıq edib.

Əflatun Amaşov Azərbaycanın milli maraqlarının qorunmasındakı qətiyyətli mövqeyinə görə Prezident İlham Əliyevin Mətbuat Şurasının xüsusi mükafatı ilə təltif olunduğunu deyib və mükafatı dövlətimizin başçısına təqdim edib.

Mətbuat Şurasının sədri milli mətbuatın 140 illiyi ilə bağlı yubiley hədiyyəsini də prezidentə təqdim edib.

Dövlət başçısı çıxışlarda səslənən təkliflərə baxılacağını və medianın inkişafı ilə bağlı tədbirlərin bundan sonra da davam etdiriləcəyini diqqətə çatdırıb.

Daha sonra İlham Əliyev Mətbuat Şurasının fəxri ad alan üzvlərinə mükafatları təqdim edib.

# Rauf Arifoğlunun Müsavat Partiyasından istefa ərizəsi - tam mətn

### "Bu ərizə ilə Müsavat Partiyasındakı 23 illik rəsmi üzvlüyümə son verirəm"; "Bu qəzetin təsisçisi-baş redaktoru olaraq şəxsimi partiya mükəlləfiyyətinin yaratdığı məcburiyyətlərdən, partiyamızı isə mənim qəzetçi-iş adamı fəaliyyətimin yaratdığı məsuliyyət və suallardan azad edirəm"

**Müsavat Partiyasının başqanı Arif Hacılı bildirib ki, Rauf Arifoğlu təşkilatdan istefa ərizəsini ötən həftə görüşərək, ona təqdim edib. Arif Hacılı özünün facebookdakı profilində bu barədə belə yazıb: "Son gəlişmələrlə bağlı yersiz müzakirələrə, bəzi siyasi alver meyllərinə son qoymaq üçün bildirirəm ki, Rauf Arifoğlu ötən həftə mənimlə görüşərək Müsavat Partiyasından çıxmaq barədə ərizəsini təqdim edib". "Yeni Müsavat" qəzeti bu barədə məlumat qıtlığını nəzərə alaraq və ehtiyacdan çıxış edərək, Rauf Arifoğlunun istefa ərizəsinin tam mətnini dərc edir.**

****



***Müsavat Partiyasının başqanı Arif Hacılıya,***

***Partiya Divanına!***

***Hörmətli Başqan,***

***Hörmətli Divan üzvləri!***

Bu ərizə ilə Müsavat Partiyasındakı 23 illik rəsmi üzvlüyümə son verirəm.

Müsavat Partiyasının Bərpa Mərkəzinin üzvü olmuşam, partiyanın rəhbər strukturlarında vəzifələr daşımışam; bundan əvvəlsə, 1989-cu ilin oktyabrında qurulan (AMDP) Yeni Müsavat Partiyasının qurucularından və rəhbərlərindən biri olmuşam. Bir sözlə, Müsavatımızın müqəddəs adı və missiyası ilə düz 26 il fasiləsiz olaraq bərabər yaşamışam.

Bildiyiniz kimi, mətbuata hərəkatdan, daha sonra isə Müsavat Partiyasının funksioneri olaraq gəlmişəm. Lakin zaman keçdikcə bəlli oldu ki, mahiyyətcə bir-birinə zidd olan bu sahələrdə eyni anda fəaliyyət göstərmək kifayət qədər mürəkkəb məsələdir. Uzun illərdir ki, media və partiya fəaliyyətinin bərabər zamanlılığının mənə yaratdığı diskomfortu, problemləri yaşamaqdayam. Və qarşımda 3 dəfə seçim olub: 1992-ci və 2001-ci illərdə partiya fəaliyyətini seçərək, mətbu fəaliyyəti arxa plana atmışam. 2006-cı ildən etibarən isə partiyadakı funksiyalarımdan imtina edərək, çox ağır durumda olan "Yeni Müsavat" qəzetinin yaşamasını təmin etmək üçün qəzetçilik fəaliyyətinə üstünlük verməyi seçmişəm. Düz o zamandan - artıq 9 ilə yaxındır ki, Müsavat Partiyasında nəzərəçarpan fəaliyyətim olmayıb.

Lakin "Yeni Müsavat" qəzetini qoruya, daha da müstəqilləşdirə, onun elektron versiyasını ölkənin ən güclü yayım orqanına çevirə, onu redaksiya ilə təmin edə; üstəlik, rus dilində fəaliyyət göstərən daha iki sayt yarada bilmişəm. Gecə-gündüz işləməyimin, dostlarımın və "Yeni Müsavat"çıların fədakar əməyinin sayəsində, ağır şərtlərin olmasına baxmayaraq, bu müddət ərzində "Yeni Müsavat" media qrupu yarada, onu ölkənin və regionun əsas yayım quruluşuna çevirə bilmişəm. "Yeni Müsavat" media qrupu bizim hər birimizə əziz olan Müsavat adına, demokratik düşərgə və milli azadlıq hərəkatı adına olan ən uğurlu layihələrdən biri kimi, 26-cı ilində ən yüksək peşəkarlıq və tirajlılıq dövrünü yaşayır.

***Hörmətli Başqan,***

***Əziz Divan üzvləri!***

Təəssüflə qeyd etməliyəm ki, mənim azad qəzetçi kimi fəaliyyətim, bir şirkət sahibi kimi bəzən biznes çıxarlarından, korporativ maraqlardan, ya da geniş ictimaiyyətə, hətta sizlərə belə açıqlaya bilmədiyim həyati əhəmiyyətli məsələlərdən doğan manevr və gedişlərim Müsavat Partiyasının və şəxsən özümün bədxahlarımızda, bəzənsə hətta bir sıra dostların özündə qıcıq və suallar yaradır. AXCP və ona bağlı olan qurumlarsa bu məqamdan Müsavata qarşı şantaj məlzəməsi kimi istifadə edir. Müsavat Partiyasının 5-ci başqanı İsa Qəmbər kənardan və daxildən olan bu basqılara cavab kimi "... "Yeni Müsavat"a qarşı hücumlar mənə olan hücumlardır" düsturunu irəli sürmüşdü. Lakin hesab edirəm ki, bu cür proses uzun müddət davam edə bilməz. Tamamilə haqlı olaraq, Müsavatın 6-cı başqanı Arif Hacılı Məclisdəki sonuncu çıxışında "Yeni Müsavat"ı partiyadan asılı olmayan, öz baş redaktorunun və kollektivinin yönəltdiyi müstəqil qəzet elan edib.

Mən də bunun bir gerçək olduğunu, oyun olmadığını təsdiq edirəm və bu qəzetin təsisçisi-baş redaktoru olaraq şəxsimi partiya mükəlləfiyyətinin yaratdığı məcburiyyətlərdən, Partiyamızı isə mənim qəzetçi-iş adamı fəaliyyətimin yaratdığı məsuliyyət və suallardan azad edirəm. Partiyada üzvlüyümü dayandırıram, müstəqil qəzetçi kimi bütün davranış və manevrlərimin, fəaliyyətimin sorumluluğunun yalnız mənə aid olduğunu bəyan edirəm.

Lakin bilmənizi istərdim:

**- Müsavat mənim hər şeyimdir!**

**- Müsavat mənim həyatımın mənası və özüdür!**

Bundan sonra da bir vətəndaş və qəzetçi olaraq bu ada və onun ehtiva etdiyi anlama, dəyərlərə, missiyaya, bayrağa, istiqlal amalına, milliyyətçilik ülküsünə, müsəlman - demokratik ideolojisinə, insan haqlarına dayalı siyasi kursa sadiq qalacağıma əmin ola bilərsiniz. Mən təşkilatda üzvlüyümü dayandırsam da, əqidəcə müsavatçı kimi qalıram, bu missiyanın gələcəyinə inanaraq, onun üçün əlimdən gələni etməyə hazır olduğumu bildirirəm.

Müsavat Partiyasının indiki rəhbərliyini, onun başqanını, siyasi kurs və mübarizəsini dəstəkləyirəm, sevinirəm ki, Müsavat adına olan təşkilatımız əmin və etibarlı əllərdədir.

Fəaliyyətiniz boyunca qəzetimizdən əvvəlki kimi və ondan daha yaxşı təmənnasız informasiya dəstəyi ala, bu media quruluşunu özünüzə ən yaxın olanı hesab edə bilərsiniz.

Mən də bir vətəndaş və partiyasız müsavatçı kimi sizlərə, 23 il sıralarında olduğum Müsavata hər cür dəstəyə hazıram.

İnanıram ki, partiya da gərəkən zamanda, həmişə olduğu kimi, söz azadlığına və "Yeni Müsavat"a dəstək olacaq.

**Allah bayrağımızı, Müsavatımızı və Azərbaycanımızı qorusun.**

YENİ MÜSAVAT
N 157 (6185) 22 iyul 2015

## Binəqədinin başçısı ölkədən niyə getdi?



# Xaləddin İbrahimova həbs təhlükəsi-özəl xəbərlər

### Başçının ailəsi 1 aydır Almaniyadadır; görüş yeri olaraq Paris seçilib; Məmmədov-İsgəndərov klanı haqda şok bilgilər...

**Binəqədinin icra başçısı Xaləddin İsgəndərovun ölkədən qaçması haqda məlumat yayılıb. İlk öncə istiqlal.az saytı, daha sonra isə başqa saytlar yazdılar ki, vergilər naziri Fazil Məmmədovla qohumluq əlaqələrinə malik olan başçı ölkədən məzuniyyət adı ilə gedib. Bu iddiaya dair müsavat.com-un özəl bilgiləri var. Lakin onları ictimailəşdirməzdən öncə, istiqlal.az saytının X.İsgəndərovun fəaliyyətinə həsr olunan geniş tənqidi məqaləsindən müəyyən məqamları xatırladaq.**

Sayt iddia edir ki, başçı yaddaşsızlıq sindromundan əziyyət çəkir və bu da onu hər dəfə pis durumlara salır : "Binəqədi sakinləri yaxşı bilir ki, Xaləddin İsgəndərovun iclasları həngaməsiz keçmir. Ancaq özünü tərifləyən icra başçısı vətəndaşa dəxli olmayan söhbətləri ilə də məşhurdur. O, soy-kökünün varlı-karlı olduğunu Binəqədi sakinlərinə "tutuzdurmaq"dan ötrü ailəsindən oğurlanan hansısa qızılları tez-tez xatırladır. Xaləddin İsgəndərovun başqa şakəri də onun yaddaş problemidir. Belə ki, 100-200 adamla keçirdiyi iclaslarda "sandığı açıb, pambığı tökən" Xaləddin İsgəndərov sonradan icra hakimiyyətində satqın ovuna çıxır. Müavinləri və yaxınları cəsarət edib "cənab başçı, siz bu sözü özünüz iclasda dediniz axı" deyəndə isə yumruğu ilə alnını döyəcləyir. Xaləddin İsgəndərovun iclaslarına bəzək olan sözlərdən biri də "kişi yalan danışmaz, xüsusən də vəzifəli adam yalan danışmaz" sözləridir. Amma təəssüf ki, özü bütün günü yalan danışır. Dərd odur ki, onun yalanlarını qəsəbə bələdiyyə sədrləri və icra nümayəndələri aforizmə çevirib, xalq arasında yayırlar".

**Sayt yazır ki, X.İsgəndərovun başçı təyinatından sonra binəqədililər əvvəlki icra başçısı Alı Qocayevin ölənlərinə rəhmət oxuyurlar. Bu da Binəqədidə tikintiyə haqq qoyulması ilə əlaqəlidir:** "Rayon ərazisindəki tikililərə qiymət vahid cədvəl əsasında qoyulub. Əgər Xaləddin İsgəndərovdan əvvəl - Milli Məclisin spikeri Oqtay Əsədovun qudası Alı Qocayevin icra başçısı işlədiyi dövrdə-daha çox Biləcəri, Binəqədi və Xocasən qəsəbələrində hasar çəkmək pulsuz, istənilən ölçüdə ev tikmək isə 500-1000 manat "şirinliklə" baş tuturdusa, Xaləddin İsgəndərovun "zühuru" ilə qiymətlərdə qiyamət qopdu. Medianın müxtəlif vaxtlarda apardığı araşdırmalara görə, X.İsgəndərovun göstərişi ilə rayon ərazisində hasar çəkmək 2-3 min, kürsülü ev 8-10 min, iki mərtəbəli evin tikintisi üçün isə 12-15 min manat rüşvət tələb olunur. Sakinlərin verdiyi son məlumata görə, manatın devalvasiyası yaz aylarına - tikinti bumunun yaşandığı dövrə təsadüf etdiyindən X.İsgəndərovun "ağ nivalı"ları da xəracı dollarla toplayırlar".

**Sayt rayon ərazisində yanan çoxmərtəbəli binanı üzləyən X.İsgəndərovun hazırda bütün məsuliyyəti FHN-in üzərinə yönləndirməyə çalışdığını da vurğulayır:** "Bakı şəhəri, Binəqədi rayonu, Azadlıq prospekti, 200/36 ünvanında yerləşən çoxmərtəbəli yaşayış binasında baş vermiş yanğın Xaləddin İsgəndərovun onsuz da çətin olan vəziyyətini bir az da ağırlaşdırdı.

Bütün şəhər ictimaiyyəti çox gözəl bilir ki, poliuretandan kütləvi istifadəni ilk dəfə Binəqədidə Xaləddin İsgəndərov tətbiq edib. Düzü, cənab başçı bunu heç danmır da və günahı Fövqəladə Hallar Nazirliyinin üzərinə yıxır: "Onlar rəy veriblər..."

Hüquqşünasların dediyinə görə, məlum hadisəyə görə müvafiq maddə ilə cinayət işi açılırsa, buna binanın fəsadını dəyişən şirkətlə yanaşı, bu sifarişi verən və onun icrasına nəzarət etməli olan Binəqədi Rayon İcra Hakimiyyətinin məsul şəxsləri və şəxsən icra başçısı Xaləddin İsgəndərov məsuliyyət daşıyır. Buna görə hesab edilir ki, ilk məsuliyyət daşıyan şəxs Xaləddin İsgəndərov olmalıdır".

***

"Yeni Müsavat"a daxil olan məlumata görə, X.İsgəndərovun tezalışan materialla üzlətdiyi binadakı yanğınla bağlı istintaqda da başçının əleyhinə ifadə var. Belə bir ifadəni vaxtilə X.isgəndərovun müavini olmuş Qəzənfər Novruzovun verdiyi bildirilir. Qeyd olunur ki, başçının sabiq müavini bütün günahın onun ayağına yazılmasına razı deyil. O, işi aparan müstəntiqlərə X.İsgəndərovun əleyhinə ifadələr verib və ifadələrini rəsmiləşdirilməsini tələb edib. Nəticədə ifadələr rəsmiləşdirilib.

**Yada salaq ki, yanğından dərhal sonra prezident İlham Əliyev hadisəsinin baş verməsində təqsirli bilinən şəxslər barədə cinayət işinin başlanılmasını və onların ciddi şəkildə cəzalandırılacağını deyib:** "Əgər bütün işlər düzgün qurulsaydı, bu hadisə baş verməzdi. Azərbaycan vətəndaşları bilməlidir ki, günahkar və günahkarlar kimdir? Bu hadisəyə görə kim məsuliyyət daşıyacaq?.."

Nəzərə alsaq ki, Nazirlər Kabinetinin son toplantısında Xaləddin İsgəndərovun güvəndiyi nazir qohumu Fazil Məmmədov da sərt tənqidə məruz qalıb, onda icra başçısının ölkədən getməsi barədə iddiaların ortaya çıxmasının təsadüf olmadığını söyləyə bilərik.

Musavat.com-a məlum olub ki, X. İbrahimov bütün ailəsini bir aydan artıqdır ki, Azərbaycandan çıxarıb. İsgəndərovlar hazırda Almaniyadadırlar - onlar əvvəl Berlin, sonra isə Hamburq şəhərlərində məskunlaşıblar. Ailə bugünlərdə Fransaya da səfər edəcək. Mənbəmiz iddia edir ki, Xaləddin İsgəndərov ailəsinə Parisdə qatılacaq.

Xaləddin İsgəndərovun hazırda da xaricdə olduğu, lakin ölkədən qaçmadığı, 5 avqusta qədər məzuniyyət izni aldığı da müsavat.com-un dəqiqləşdirdiyi xəbərlər sırasındadır. Ailəsindən kənarda olsa da, hörmətli İsgəndərov Azərbaycandan kənardadır və onun özü də, ailəsi də həyəcanla Bakıdan xəbər gözləyir. Hər an onun işdən çıxarılması və cinayət məsuliyyətinə cəlb olunması xəbərləri gələ bilər.

Qaynaq deyir ki, X. Isgəndərovun, o cümlədən də digər qohumların əksəriyyətinin Azərbaycandan getməsi barədə təlimat vergilər naziri, bu klanın rəhbəri Fazil Məmmədov tərəfindən verilib. Cənab nazirin təlimatlarında klan üzvlərinə qəti tapşırılıb ki, bu aralar sizi küçədə söysələr də, döysələr də, səs çıxarmayın.

Böyük narahatlıq səbəbindən hazırda Məmmədov-İsgəndərov klanının gənc üzvlərinin hamısı xaricdədir.

Təbii ki, klanın bütün üzvləri həbs olunmayacaq. Lakin Xaləddin İsgəndərovun cəzalanacağı qəti qərar kimi görünür. Mənbə iddia edir ki, həm onun yanan bina ilə bağlı cinayət işində adı mərkəzi fiqur kimi keçir, həm də işdə ciddi yeyintilərə yol verdiyi məlum olub .

Özəl qaynaqlar iddia edirlər ki, X. İsgəndərov dünya zənginlərinin belə özünə rəva bilmədiyi təmtəraq içərisində yaşayır. Bəzi dəqiqləşdirilmiş rəqəmləri yazaq: Onun evində 3 sürücü çalışır. Özünün xidməti sürücüsü ilə birlikdə, İsgəndərovların sərəncamında 4 sürücü, 10-a yazın maşın var. Yalnız evdə çalışanlara verdiyi aylıq əmək haqları 17500 manatdır. Özəl qaynaqlar iddia edirlər ki, İsgəndərovların aylıq xərcləri 50 min manatdan yuxarıdır. Onlar Binəqədinin ən yaxşı torpaqlarına sahibləniblər. Rayonda çoxsaylı tikinti işlərinə də məhz İsgəndərovlar nəzarət edir. Lakin hazırda onlar bütün işlərini saxlayıblar və proseslərin sonunu gözləyirlər.

❑ E.HÜSEYNOV

## Azərbaycana kameralı eynək gətirən QHT sədri saxlandı

**Moskva-Bakı aviareysi ilə gələn Azərbaycan vətəndaşı Əliyev İlqar Talışxan oğlu gömrük nəzarətindən keçərkən Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin əməkdaşları tərəfindən onun baqajına rentgen aparatı vasitəsilə baxış keçirilib və monitorda metal əşyaların təsvirləri əks olunduğuna görə təkrar yoxlama aparılıb.**

Dövlət Gömrük Komitəsindən verilən məlumata görə, yoxlama zamanı sərnişin İ. Əliyevə məxsus çamadanda olan şəxsi əşyaların arasından əvvəlcədən gömrük nəzarətinə təqdim olunmayan, elektron, kağız üzərində yazılı və ya şifahi formada bəyan edilməyən, metaldan hazırlanmış 7 ədəd müxtəlif ölçülü və formalı bıçaqlar, 1 ədəd beşguşəli, itibucaqlı ulduz formalı predmet, 1 ədəd kameralı qələm və 1 ədəd kameralı eynək aşkar olunaraq protokol əsasında götürülüb.

İ. Əliyev izahatında "Yeni Sabah" Qeyri-Hökumət Təşkilatının sədri olduğunu və həmin əşyaları Tailandın Pattaya şəhərində olarkən mağazadan aldığını bildirib.

Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin rəyinə əsasən bıçaqlardan 5-i soyuq silah hesab olunur, 1 ədəd eynək və 1 ədəd qələm isə mövcud ola biləcək məlumatları izləmək, dinləmək, köçürmək, pozmaq, əlavə etmək kimi funksiyalara malikdir və onlar gizli yolla informasiya əldə etmək üçün nəzərdə tutulmuş əşyalardır.

Faktla bağlı Dövlət Gömrük Komitəsinin İstintaq İdarəsində araşdırma aparılır (APA).



YENİ MÜSAVAT
N 157 (6185) 22 iyul 2015

# Rauf Arifoğlu: "Prezident bizi oxuyur"

## "İlham Əliyevin bu jesti həm məmur korpusu, həm də müxalifət düşərgəsinin bəzi kəsimləri üçün bir qədər də tərbiyəvi əhəmiyyət daşıyır"

**İyulun 21-də prezident İlham Əliyev Azərbaycan milli mətbuatının yaranmasının 140 illiyi ilə bağlı bir qrup media təmsilçisini iqamətgahında qəbul edib. Görüşdə dövlət başçısı Milli Mətbuat Günü ilə bağlı mükafat verdiyi jurnalistlərdən dördünü şəxsən təltif edib. Bu sırada "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu da var. Görüşdən sonra verdiyi müsahibədə Rauf Arifoğlu görüşdən, dövlət başçısının mesajlarından danışıb.**



***- Rauf bəy, öncə sizi "Əməkdar jurnalist" adı almağınız münasibətilə təbrik edirəm. Görüş necə keçdi?***

- Öncə onu deyim ki, mən media fəaliyyətinə başlayarkən, mükafat alacağımı gözə almayan adamlardanam. Biz bu prosesə başlayanda ölkədə vəziyyət başqa idi. Mükafat yox, əksinə, rusların, kommunistlərin basqısını, şəhid olmağı gözə almışdıq. Amma işin gedişində - yəni mediada olduğum bu 26 ildə çoxsaylı mükafatlar almışam. Oxucularımdan, xalqımdan böyük sayğı, dəstək görmüşəm. İllərdir ki, ölkənin əsas media quruluşunun rəhbəri olmaq şansını oxucularım mənə verib. Tiraj onların tirajıdır, onların münasibətidir, onların rəyinin nəticəsidir. İkincisi, Allahımdan mükafat almışam ki, belə bir qisməti, taleni mənim üçün yazıb, arxamda, başımın üstündə durub. Eyni zamanda qəzetin kollektivindən hər zaman razı olmuşam. Kollektivimizdə adətən dəyişim az olur. Bu da bizim stabilliyimizin, həyata baxış fəlsəfəmizin göstəricisidir. Bunlar mənim üçün böyük mükafatlardır. İndiyə qədər Ali Media Mükafatı almışam, Türk Dünyasına Xidmət ödülü, Türkiyədən, xarici ölkələrdən, "Sərhədsiz Reportyorlar"dan, ən müxtəlif media qurululşlarından dünya çapında mükafatlar almışam. "Əməkdar jurnalist" adını isə 26 illik fəaliyyətdən sonra mənə öz dövlətim verdi. Bunu həm də ona görə əhəmiyyətli hesab edirəm ki, Azərbaycanda bir dövlət gələnəyi formalaşır. Açığı, tənqidi medianın parlaq təmsilçisi kimi, 20 ildən artıq bu hakimiyyətə qarşı tənqidçi mövqe tutan bir yazar kimi, o siyahıda adım olsa belə, mükafat alacağımı düşünmürdüm. Bizim qəzetimizin ayrıca təqdimatı var idi, biz bir neçə yazarımızı mənim imzamla mükafat almaq üçün təqdim etmişdik. Böyük ümidlərlə gözləyirdim ki, onlar "Əməkdar jurnalist" adı alacaqlar. Özümlə bağlı heç bir gözləntim olmadığı üçün sənədlərimi belə təqdim eləməmişdim.

***- Xəbəri hardan öyrəndiz?***

- AzadlıqRadiosundan. Gözlənilməz oldu... Mükafatın önəmi bir daha qeyd edirəm ki, dövlətin jest eləməsindədir. Bu jest həm məmuriyyət, həm də müxalifət düşərgəsinin bəzi kəsimləri üçün bir qədər də tərbiyəvi əhəmiyyət daşıyır. Əslində mən ən kəskin münasibətdə olduğum müxalifət liderlərindən də təbrik gözləyirəm. Çünki bugünkü fraqmentdə mən onlarla ziddiyyətdəyəm. 26 ilin az qala 20 ilini bir yerdə yol gəlmişik. Hər dəfə heyrətə gəlirəm ki, bu qədər münasibətlərə, bizim xidmətimizə baxmayaraq, Azərbaycanda müxalif kəsimin təmsilçiləri cəmi bir məqalə ilə insandan və qəzetdən soyuyurlar, sanksiya çıxarırlar, qərar verirlər, boykot edirlər. Bu da yaxşı bir şey deyil. Nə demokratikdi, nə dövlətçi. Dözümlü olmaq gərəkdir. Başa düşürəm, dünyanın heç yerində qəzetçiləri sevmirlər. Ancaq qəzetçiyə dözmək özü bir kültürdür. Bu gün Azərbaycan prezidenti o kültürü, mədəniyyəti göstərdi. Mənə elə gəlir, bu, çoxlarına dərs olacaq. Ona görə də bu mükafat mənim üçün bir nümunə olaraq önəm daşıyır. Təbii, əməyimin hər hansı bir cümlə ilə qiymətləndirilməsini xoş qarşılayıram. Hətta bu cümlə mənə qarşı neqativ olanda belə. Baxın, bu gün siyasi gündəmin tam mərkəzində mənim, qəzetin adıdır. Bu mənim üçün çox xoşdur. Ona görə beləydir ki, bu günün əsas amili olmağı bacarırıq. 200-ə yaxın adam ad alır, ancaq tənqid, müzakirə hissəsi bizimlə bağlı olur. Bu özü də çox önəmli bir məsələdir. Mənim mükafatımı yaxşı mənada tamamlayan məsələdir.

***- Mükafat aldıqdan sonra müxalifət düşərgəsinin bəzi nümayəndələri tərəfindən sosial şəbəkələrdə ağır şəkildə tənqid olunursuz. Buna münasibətiniz necədir?***

- Mən çox narahatam, çox qorxuram ki, iqtidar dəyişimi olarsa və bu dəyişim indiki müxalifətin bazasında baş verərsə, bu, daha dəhşətli nəticələrə gətirib çıxarar. Mən buna əminəm. Kiçik imkanlarla - sosial mediada və cəmi bir qəzetdə bizə olmazın sözlər yazdıran, təhqir etdirən, sözün həqiqi mənasında, söydürən kəsim əlinə iqtidar keçərsə, daha fərqli davranar. Sizə bir nümunə deyim. Siyasi radikallıq, mətbu radikallıq dini radikallığa, İŞİD radikallığına bərabərdir. Biri kamikadzelər hazırlayır, insanları öldürür, yaralayır, digərləri də ağzında söz partladan kamikadzelər hazırlayır - insanları, bütünlükdə toplumu zədələyir. "Şəhid" kəmərini çəkib özünü partladan İŞİD-çi ilə ağzındakı söyüşləri parladan "kərimovçular"ın heç bir fərqi yoxdur. Dediyim odur ki, bu jest olunub, bu addım atılıb. Bu, qarşı tərəf üçün də elə asan deyil. Onlar üçün də mənim nələr yazdığım, nələr söylədiyimlə tanış olmaq üçün yetərincə material bazası var. Amma bu jest edildi, dövlətçilik açısından davranıldı. Bu nümunənin digər düşərgə təmsilçilərinə keçməsini də arzu eləyərdim. Bu cür radikallığın, aqressivliyin, nifrinin aradan və leksikondan götürülməsini arzu edərdim. O söyüş, qarğış, təhqir götürülməyənə qədər həbslər davam edəcək. İnsanların çoxunu onlar "qazlayıb" qabağa verirlər. Öz uşaqlarını, ailələrini ölkədən çıxarırlar, camaatın övladlarını tutdururlar. Bu prosesi dayandırmaq lazımdır. Söyüşlə, qaragüruhçuluqla hakimiyyətə gəlmək və ictimai dayaq qazanmaq taktikası uğursuzluğa məhkum olur. Bu taktikadan imtina etmək lazımdır. Bu mənada o qədər də narahat deyiləm. Bir düşərgə ki, bu siyasətlə iflasın eşiyinə gəlib, ən yaxın adamları belə onu tərk edir, o siyasətin mənə doğru kükrəməsindən niyə narahat olum ki? Böhran daha da dərinləşir. Bizimlə toqquşa-toqquşa onların hansı duruma düşdüyünü görürük. Məsələni yalnız o istiqamətə yönəltmək istəmirəm - mənim beynimdə yalnız o deyil. Mənim beynimdə, düşüncəmdə odur ki, prezident bizimlə həmin görüşdə çox önəmli mesajlar verdi. Mən bir media təmsilçisiyəm, heç bir başqa siyasi iddiam yoxdur ki... Mən onun rəhbərlik etdiyi Azərbaycanda işləmək, buradan qaçmamaq, çalışmaq haqqında qərar vermişəm. Onun davranışları, hərəkətləri, mesajları mənim üçün müxalif düşərgənin addımları, mesajları qədər və ondan daha çox önəmlidir. Çünki imkanlar və təsiretmə gücü fərqlidir.

> **"İnsanların çoxunu onlar "qazlayıb" qabağa verirlər. Öz uşaqlarını, ailələrini ölkədən çıxarırlar, camaatın övladlarını tutdururlar"**

***- Yeni gəlmişkən, dövlət başçısı görüşdə hansı mesajları verdi?***

- Açıq mətnlə dedi ki, bizi oxuyur. Bildirdi ki, öncələr mətbuat xidməti və digər strukturlar bu xidməti həyata keçirirdilər, bəzən xülasə gecikirdi, bəzən məmur özbaşınalıqları ilə bağlı xəbərləri, baş verən olayları məndən gizlədirdilər, ancaq indi yaxın çevrəmdəki insanlar da görürlər ki, mən xəbərləri onlardan tez alıram. Çox böyük jest edib, bizim önəmimizi vurğuladı, dedi ki, bu, sizin sayənizdə baş verir, mən sizin saytları oxuyuram, məlumatları alıram, hesab edirəm ki, mətbuatla prezidentin əməkdaşlığı davam etməlidir. Gördüyünüz kimi, mən məsələni media meneceri kimi dəyərləndirirəm. Prezident düşünür ki, beynəlxalq miqyasda Azərbaycana qarşı haqsız kampaniya gedir. O, bir ifadə işlətdi ki, biz informasiyaları alıb təhlil etdikcə həmin kampaniyanın ardından erməni lobbisinin uzun qulaqlarının çıxdığını gördük, buna görə bu qərara gəlmişik ki, Azərbaycanda müəyyən tirajı olan informasiya vasitələrinin müxtəlif dillərdə əlavələri olsun, bunun üçün dövlət hər cür dəstək verməyə hazırdır.

> **"Prezident bir ifadə işlətdi, dedi ki, biz məlumatları təhlil etdikcə bu kampaniyanın ardından erməni lobbisinin uzun qulaqlarının çıxdığını gördük"**

Təbii, mən burada özümə də pay götürdüm. Ən öndə olan bir neçə saytın rəhbəri olaraq düşündüm ki, bu, bizim işimizə yarayan prosesdir. Biz Azərbaycan və rus dillərində keyfiyyətli sayt qurub informasiya prosesi apara biliriksə, bunu ingiliscə, fransızca və başqa dillərdə də təşkil edə bilərik. Hesab edirəm ki, əgər belə bir qərar olsa, tamamilə doğru olar və Azərbaycanın saytları yazılı mətbuat kimi dəstək alaraq bu işə başlasa, həm Azərbaycan üçün, həm də hakimiyyət üçün böyük bir fayda ortaya çıxmış olar.



> **"Siyasi radikallıq, mətbu radikallıq dini radikallıqla, İŞİD radikallığıyla bərabərdir"**

***- Prezident bizi oxuyursa, deməli, məmur özbaşınalıqları haqqında yazılanlardan da xəbərdardır. Bu haqda söhbət oldumu?***

- Bəli. Məmur özbaşınalığından, yerlərdə insanların incidilməsindən, ağacların kəsilməsindən, paytaxtda qanunsuz işlər görülməsindən, iş adamlarının neqativ planda müəyyən addımlar atmasından - hamısından xəbərdardır. Sadaladığım məsələləri təsnifatlandırdı və dedi ki, idarəetmədə ciddi islahatlara ehtiyac var, bu prosesdə mediaya, onun operativliyinə güvənir.

***- Bu gün Azərbaycanın xarici siyasət kursu ilə bağlı da ciddi narahatçılıqlar var. İlham Əliyev çıxışında bu sahəyə də toxundumu?***

- Dövlət başçısı Azərbaycanın müstəqil siyasət yürüdəcəyi və heç bir xarici basqıya boyun əyməyəcəyi haqda bəyanatlarını bir daha təkrarladı. Söylədi ki, biz müstəqil xətt yürüdürük, ancaq bir sıra dairələrin gözü bizi götürmür, bunun da öz səbəbləri var. Birincisi, biz inkişaf edirik və müstəqil siyasi xətt yürüdürük. İkincisi, erməni lobbisi məsələsidir ki, onların vasitəsilə Azərbaycana qarşı kampaniya müəyyən təkan götürür. Üçüncü önəmli məsələ də onun fikrincə, Qərb dairələrində islamafobiyanın güclənməsidir. Prezident hesab edir ki, Azərbaycan kimi bir ölkənin inkişaf etməsi müəyyən islamafob Qərb dairələrinə, ölkələrə sərf etmir. O, Azərbaycan mediası vasitəsilə erməni xalqına müraciət etdi, bildirdi ki, mən erməni xalqının quldur rejimin əlində girov olduğunu düşünürəm, təbii, xalq belə bir durumda yaşamaq istəməzdi. Ermənistan Dağlıq Qarabağ münaqişəsi vasitəsilə Azərbaycanla müharibəyə qoşulmasaydı, indi durumu tamam fərqli olacaqdı. Vurğuladı ki, Ermənistan nəinki forpost ölkədir, o, nökər ölkədir, erməni xalqı hazırkı həyata layiq deyil. Erməni lobbisi, bir sıra islamafob ölkələr göstərmək istəyir ki, Azərbaycanda insan haqları pozulur, ancaq belə deyil, bizdə fundamental azadlıqlar təmin olunur. Onlar insan haqlarının pozulması ilə dünyaya göstərmək istəyirlər ki, erməni azlığın da burada hüququ pozulacaq, onların Azərbaycanla bərabər yaşaması mümkün deyil. Prezident bəyan etdi ki, bu, belə deyil, biz erməni xalqının hazırda Ermənistanda mövcud olan hakimiyyətin əlindən qurtulmasını istəyirik, azad, müstəqil olmasını, öz siyasətini özünün müəyyənləşdirməsini istəyirik. Qarabağla bağlı danışarkən onu da bildirdi ki, Ermənistan Azərbaycanın tarixi torpaqlarında dövlət qurub, bunun sübutları var. Eyni zamanda dedi ki, MDB məkanında Qarabağ münaqişəsindən başqa elə bir münaqişə yoxdur ki, onunla bağlı BMT-nin 4 qətnaməsi olsun. Əlimizdə bu qədər güclü arqumentlər olmasına baxmayaraq, biz bunu dünyaya keyfiyyətli təqdim edə bilmirik.

***- Belə anlaşılır ki, dövlət başçısı Azərbaycan mediasının xarici auditoriyaya da təsirlərinin artırılması haqda düşünür.***

- Bu yanaşma bizi qane edir. Prezident deyir ki, xarici siyasətdə ənənəsini götürdüyümüz Qərb mediası Azərbaycan mediasından daha millidir, daha dövlətçidir. O, xarici siyasətlə bağlı mediadan kömək istədiyini vurğuladı. Bu baxımdan mən bu yanaşmanı haqlı hesab edirəm. Amma eyni zamanda dəfələrlə bildirdi ki, bizim mövcudluğumuz Azərbaycanda söz və mətbuat azadlığının olmasının sübutudur. Onun bizə necə baxmağından asılı olmayaraq, bizim mövcudluğumuzun genişlənməsinə dəstək verməyə hazırdırsa, bu, indiki şərtlər altında bizim sığortamız, gələcəyimiz deməkdir.

> **"Mən çox narahatam, çox qorxuram ki, iqtidar dəyişimi olarsa və bu dəyişim indiki müxalifətin bazasında baş verərsə, bu, daha dəhşətli nəticələrə gətirib çıxarar"**

**Aygün MURADXANLI**

**Ötən il oktyabrın 5-də müəllimlərin peşə bayramıydı, prezident İlham Əliyev ölkədə yaşayıb-işləyən müəllimlərdən bir xeylisinə fəxri adlar, mükafatlar verdi. Ötən il noyabrın 22-də ədliyyə işçilərinin bayramı oldu, dövlət başçısı bu münasibətlə ədliyyə sistemində çalışan xeyli adama yeni rütbələr, fəxri adlar və medallar verdi.**

Xalid KAZIMLI



# Təltiflər medianı doğrudanmı öldürdü?

## Yeni dövrün tələbi budur: ətçəkən maşının bunkerinə düşmədən həqiqəti yazmaq

İyunun 17-də səhiyyə işçilərinin peşə bayramıydı, prezident bu sahədə çalışan şəxslərə fəxri adlar, medallar, mükafatlar payladı.

Bu minvalla hər il oktyabrın 13-də dəmiryolçuların, iyunun 26-da hərbçilərin, iyulun 2-də polislərin, oktyabrın 10-da yanğınsöndürənlərin, mayın 23-də ekoloqların, iyunun 5-də melioratorların, avqustun 18-də sərhədçilərin, fevralın 1-də vergi işçilərinin, yanvarın 30-da gömrükçülərin, oktyabrın 1-də prokurorluq işçilərinin, iyunun 23-də dövlət qulluqçularının peşə bayramı qeyd olunur və prezident bu bayramlarla əlaqədar həmin sahələrin peşəkarlarına fəxri adlar, medallar (əsasən "Tərəqqi"), mükafatlar verir.

Yəni hər il xüsusi peşə bayramlarında minlərlə adam mükafat alır, təltif olunur.

Baxaq, görək, bu, peşəkar və sosial mediada uzun-uzadı müzakirə predmeti olurmu? Olmur. Bəlkə bəzi hərbçilərə general rütbəsi, ya da hansısa vəzifəli şəxsə "Şöhrət" ordeni veriləndə bu, epizodik olaraq bir-iki yazıya mövzu ola.

Bir qayda olaraq, bu kimi təltiflərin üstündən keçilir, heç kim gömrükçülərin, vergiyığanların, melioratorların hansının bu mükafata layiq olub-olmadığı barədə uzun-uzadı mübahisə etmir.

Ancaq budur, mətbuat işçilərinin peşə bayramı qeyd olunub, bir sıra həmkarlarımız haqlı-haqsız mükafatlandırılıb və bu, istər mediada, istərsə də ictimai-siyasi arenada geniş müzakirələrin, mübahisələrin mövzusudur. Haray-həşir, şivən ərşə qalxıb.

"Bununla da media öldü", "Mətbuat köləyə çevrildi" yazanlar, mükafat alanları ucdantutma "yaltaq" adlandıranlar, təhqir edənlər var.

Bu, maksimalist və anormal yanaşmadır. Bir qrup jurnalistin mükafatlandırılması ilə media ölən və ya köləyə çevrilən deyil.

Ona qalsa totalitarizmin hökm sürdüyü sovet dövründə də qəzet-jurnallar sırf partiya-sovet təşkilatlarının orqanı kimi fəaliyyət göstərirdi, hamısı eyni şüarla *("Bütün ölkələrin proletarları, birləşin")* çıxırdı, heç biri SSRİ-də olan ciddi neqativ hallardan yazmırdı, hamısı yalan yazmağa, yalançı təbliğat aparmağa məhkum idi, ancaq hər halda bu söz sənəti yaşayırdı. Yenə də vicdanlı jurnalistlər vardı və onlar sətirlərin arasında olsa da, öz düşüncələrini, həqiqətləri yazmağa çalışırdılar, bir yolunu tapıb xalqa nəsə çatdırırdılar.

Totalitarizmin məhv edə bilmədiyi medianı avtoritarizm boğa, öldürə, köləyə çevirə bilməz. Düzdür, total basqılar, təqiblər, repressiyalar elə bir mühit yarada bilər ki, jurnalistlər əvvəl yazdıqları sərtliklə, çılpaqlıqda yaza, cürətli araşdırma apara bilməzlər, amma bu, o demək deyil ki, hamı bir qəlibdən çıxmış kimi kölə olacaq və ölkədəki neqativlikləri, iyrənclikləri görəcək, dinc-dinməz duracaq, zülmə ortaq olacaq.

Jurnalistlərin mükafatlandırılmasına bu sayaq həssas münasibət bir gerçəyi də üzə çıxarır. Demək, ictimaiyyətin jurnalistlərdən gözləntiləri böyükdür, hətta çox böyükdür.

Hamı hesab edir ki, ölkədə haqq-ədalətin bərqərarı, azad və şəffaf seçki mühitinin yaradılması, korrupsiyanın cilovlanması, bir sözlə, ölkənin normal, mədəni Avropa ölkələrindən birinə çevrilməsi istiqamətində əsas yük mətbuatın üzərindədir.

Ölkədə bütün sosial-iqtisadi sferalarda vəziyyət, kobud desək, it günündə ola bilər, amma mediada durum ideal səviyyədə olmalıdır. Belə çıxır ki, birinci (icra hakimiyyəti), ikinci (qanunvericilik), üçüncü (məhkəmə) hakimiyyət qollarının funksionallığı, qanunlara nə dərəcədə riayət etməsi, dürüst fəaliyyəti müzakirə mövzusu olmaya da bilər, amma dördüncü hakimiyyət onların fövqündə dayanmalı, üst qurum kimi davranaraq, ədaləti təmin etməlidir.

Bu da utopik yanaşmadır. İllərdir işin içindəyik, xalqın medianı son instansiya hesab etdiyinin, əlacı hər şeydən kəsiləndən sonra mətbuatın üstünə qaçdığının fərqindəyik. Redaksiyaya gəlib icra başçılarından, polis rəislərindən, prokurorlardan, məhkəmə hakimlərindən şikayətlənən sadə adamlar bəzən hesab edirlər ki, biz onlardan güclüyük, istəsək, onları cəzalandıra bilərik.

Yüzlərlə belə faktın şahidi olmuşuq. Adamlara bəzən izah edə bilməmişik, bəzən də onlardakı son ümidi qırmaq istəməmişik, deməmişik ki, əslində elə deyil, bizim gücümüz yalnız yazmağa çatır, yazdıqlarımız isə lap yuxarıda oturanları diqqətinə çata da bilər, çatmaya da, keflərinin kök vaxtına düşə də bilər, düşməyə də.

Bizə qalsaydı, nə vardı ki... İndiyədək bütün zalımları, tamahkarları cəzalandırar, bütün günahsız məhbusları azad edər, haqqı əlindən alınanların haqqını özünə qaytarardıq. Ancaq bütün bunları etmək bizim - jurnalistlərin imkanı xaricindədir. Hər şeyə cavabdeh durumuna gəlmək, həddindən artıq çox məsuliyyət daşımaq o qədər də xoş deyil, hətta adam bu yükün altında əzilir.

Fikir verin, prezidentin sərəncamı ilə 180 media işçisi təltif olunub. Bunlardan təxminən 150-dən artığını ictimaiyyət tanımır, 10-15-ni də nisbətən az tanıyır, ancaq 3-5 jurnalist var ki, onların şöhrəti o birilərindən çoxdur. Ancaq ictimai-siyasi fəallar 180 nəfərin 179-nu bir tərəfə qoyublar, "Yeni Müsavat"ın baş redaktoru Rauf Arifoğlunu bir tərəfə. İki gündür onun adını azı 10 min dəfə hallandırıblar.

Çoxları etiraf edir ki, R.Arifoğlunun müstəqil Azərbaycan mediasının inkişafında danılmaz xidməti, əməyi var və o, əslində lap çoxdan əməkdar jurnalistdir. Yaxşı, adam bu fəxri adı haqq edibsə, indi, uzun illərdən sonra alırsa, problem nədir?

Demək ki, məsələ R. Arifoğlunun *(yaxud da bir başqasının)* layiq olduğu fəxri adı almasında deyil, ona o adı kimin verməsindədir.

Əgər R. Arifoğluna fəxri adı İlham Əliyev yox, həmin vəzifədə olan ixtiyari başqa bir siyasi xadim versəydi, o zaman baş redaktoru məhz həmin şəxsin müxalifləri söyüb-yamanlayacaqdı.

Əməkdar jurnalist adı alması ilə eyni vaxtda R.Arifoğlunun öz partiyalılığına son verməsi isə o demək deyil ki, "Yeni Müsavat" sabahdan iqtidar qəzeti kimi çıxacaq. Bunu gözləyənlər, arzulayanlar var, amma umsuq olacaqlar. Qəzetimiz tənqidçi qəzet olaraq qalacaq, xalqın üz tutduğu son instansiya olmaq statusunu saxlayacaq, özünü ətçəkən maşının bunkerinə salmadan haqq-ədalət davası aparacaq. Hər kəs bunu belə bilsin.

Dəfələrlə yazmışıq, yenə təkrar edək. Bu ölkədə siyasi dairələr və qrupların demək olar ki, heç biri mediaya müstəqil, neytral institut kimi baxmır. Hamısı onu "doğmalar"a, "yadlar"a ayırır. Nə qədər peşəkar, istedadlı olursan, ol, mütləq bir tərəf səni "doğma" sayıb öyəcək, o biri tərəf "düşmən" elan edib söyəcək. Sırf müstəqil olmaq istəsən, hər iki tərəf söyəcək - biri şiddətlə, bir astadan, biri üzdə, o biri daldada.

Vəziyyət bu cürdür. Ona görə də artıq öyənlərin və söyənlərin replikası önəm daşımır. Vaxt gələcək, hər kəs medianın əsas missiyasının, peşə prinsiplərinin nə olduğunu başa düşəcək. Əgər o vaxtı görmək bizə qismət olmasa da, eybi yox, əsas odur ki, o gün gələcək.



# Beynəlxalq Bank işində şok həbs - səfirin qardaşını tutdular

## Orta Asiya ölkələrindən birində Azərbaycanın səfiri olan şəxsin qardaşı Beynəlxalq Bankdan 32 milyon manat krediti qaytarmayıb

**Bu ilin martında Beynəlxalq Banka borclu iş adamlarının həbsləri davam edir. Aldığımız məlumata görə, son 1 ayda tutulan şəxslər arasında Orta Asiya ölkələrindən birində Azərbaycanın səfiri olan şəxsin qardaşı da var. Kamal adlı həmin şəxs Beynəlxalq Bankdan 32 milyon manat kredit götürüb və qaytarmayıb.**

Xaricdə tutularaq ölkəyə gətirilən həmin iş adamı pulları qaytarmaq iqtidarında olmadığını bildirib. Hazırda onun əmlaklarının siyahısı dəqiqləşdirilir. Aparılan araşdırmalar zamanı məlum olub ki, iş adamı Beynəlxalq Bankdan götürdüyü krediti təyinatı üzrə xərcləməyib. Kredit götürərkən Beynəlxalq Banka təqdim etdiyi biznes-plana uyğun hər hansı bir iş görmədiyi də məlum olub. İş adamı kredit hesabına Azərbaycanda və ölkədən kənardan daşınmaz əmlaklar alıb. Həmin əmlakları icarəyə verməklə pul qazanıb. Lakin götürdüyü krediti geri qaytarmaq üçün addımlar atmağa tələsməyib. Hazırda Baş Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsində saxlanılan həmin şəxsin azad olunması üçün səfir qardaşının da müəyyən addımlar atdığı bildirilir...

Bu gün Beynəlxalq Bank işi üzrə həbsdə neçə şəxsin olması haqda müfəssəl məlumat yoxdur. Yayılan məlumatlara görə, Beynəlxalq Bankdan yüz milyonlarla kredit alan və geri qaytarmayan onlarla sahibkar həbs olunub, onlardan 43 nəfəri vaxtı keçmiş kredit borclarını ödədikdən sonra sərbəst buraxılıb. Borcların ödənilməsindən sonra iş adamlarından bəziləri barəsində seçilmiş həbs-qətimkan tədbiri məhkəmə qərarı ilə dəyişdirilib. Son rəsmi məlumata görə, sərbəst buraxılmış iş adamlarının indiyə qədər ödədikləri vaxtı keçmiş kredit borcunun ümumi miqdarı 110 milyon manat təşkil edir ki, bu da Beynəlxalq Banka olan borcun heç minimum həddi də deyil. Kreditlərin geri qaytarılması üçün bir-birinin ardınca atılan addımlar onu deməyə əsas verir ki, iqtidar Beynəlxalq Bankdan götürülən kreditlərin son qəpiyinə qədər qaytarılmasında israrlıdır. Prezident İlham Əliyevin Azərbaycan Beynəlxalq Bankı ilə bağlı iyulun 15-də imzaladığı fərman borclu oliqarxlar, eləcə də bankda kredit məsələlərinə məsul olan rəhbər şəxslərin üzərinə böyük məsuliyyət qoyur.

Məlumdur ki, prezidentin fərmanında kreditlərin verilməsi zamanı bank və mülki qanunvericiliyin tələblərinə riayət edilməsi məsələlərini araşdırmaq, aşkar olunmuş nöqsanlara yol vermiş şəxslərin hərəkətlərinə hüquqi qiymət verilməsi və onların məsuliyyətə cəlb olunması üçün hüquq-mühafizə orqanları ilə birlikdə tədbirlər görmək tapşırılıb. Bu, həm də o deməkdir ki, həbslər davam edəcək və kimliyindən asılı olmayaraq məsuliyyətdən yayınmaq mümkün olmayacaq.

E.MƏMMƏDƏLİYEV

# Aşkarlıq dövrü



Zamin HACI
zaminhaci@gmail.com

"Mən bu kitabı oxuyan dərvişin yanından keçirdim.
- Ah, yaramaz kafir! - o qışqırdı - Sənin üzündən mən çaşdım, saydığım saitləri qarışdırdım, indi mənim ruhum dovşana keçəcək, halbuki mən ümid edirdim ruhum tutuquşuya keçəcək.
Mən dərvişi sakitləşdirmək üçün ona bir rupi verdim"

**(Volter, "Bir türkün dərvişlər və dostu Bababəy haqda məktubu")**

**Jurnalistlərin dövlət tərəfindən hərtərəfli qayğı ilə əhatə olunduğu respublikamızda milli mətbuatın, sən demə, 140 yaşı tamam olurmuş. Açığı, bu 140 ildə öz missiyasını - həqiqətə xidməti axıra qədər qoruyub saxlaya bilən 14 media orqanımız olubmu, mən bunu saymaqda çətinlik çəkdim. Amma qayğı doğrudan var. Məsələn, evsiz jurnalistlər bir-iki tənqid yazıb Kürdəxanı zindanında ayrıca kamera ilə mükafatlandırıla bilərlər. Pulsuz jurnalistlərə pul, yolsuz jurnalistlərə yol verilir. Hətta istəsən hökumət sənin əvəzindən yazı göndərər, dərc edərsən.**

Sonuncu sizə şişirtmə kimi gəlməsin. Məxfi göndərilən yazı-pozuları da nəzərdə tutmuram. Tam açıq şəkildə belə işlər var. Örnək üçün, hətta dövlətin və yapistlərin qəzetləri də prezidentin tədbirlərinə adətən buraxılmır, onların əvəzindən AzərTAc reportaj hazırlayır, göndərir, onlar da səhifəyə qoyurlar. Ta adama nə gərəkdir? O klassik filmdə deyilən kimi, istəsən "səndən ötrü texnikuma da girirlər".

Amma ağıllı siyasət belə olmur. Tənqidləri, pislikləri, problemləri ört-basdır eləməklə dövlət siyasəti qurmaq ancaq avtoritar, totalitar sistemlərə məxsus müvəqqəti uğur görsənişidir. Bu, çürük ağaca zər-ziba bağlamaqdır, yüngülvarı küləkdən yıxılacaq. Neftin müftə pulları sel kimi gələndə bu gopçuluğu yaxşı, yağlı şəkildə davam etdirmək olurdu, indən belə çətin olacaq.

Dünən mən AzadlıqRadiosunun saytında bir rəqəm gördüm: "Azərsun" şirkətlər qrupunun 2014-cü ildəki gəlirləri azalaraq 300 milyon manat olubmuş. 2013-cü ildə təxminən 358 milyon imiş. Pul niyə azalıb, bəlkə şirkət gəlirləri gizlədir, bunun həqiqi yiyəsi kimdir tipli sualları hələ qırağa qoyuram. *(Prinsipcə, qırağa qoymayıb yazsam, özüm qırağa qoyularam. Elə keçən il həbs edilən jurnalist Xədicə İsmayılın bir araşdırması bu "Azərsun"un hakimiyyətdə kimə məxsusluğu haqda deyildimi?).* Mənə qeyri-neft sektorunun inkişafı haqda nağıllar maraqlıdır. Bəs bu inkişaf hanı? Elə həmin məqalədə "Azərsun"a məxsus şirkətlərin adları verilmişdi. Təsəvvür edin, bu, respublikanın ərzaq istehsalı, idxalı, tikinti, nəqliyyat, ticarət, kənd təsərrüfatı, yüngül sənaye, loqistika və sair iqtisadiyyat sahələrini əhatə edən böyük şirkətlər qrupudur, bunların bir çoxunda isə sırf inhisarçıdır. Mən ərinməmdim, saydım: "Azərsun" qrupuna daxil olan şirkətlərin sayı 23, qrupla bu və ya digər səviyyədə əlaqəli şirkətlərin sayı isə 26 imiş! Yəni ölkənin 50 zırpı və monopolist şirkətinin illik gəliri 300 milyon manatdan çox deyilsə, hansı inkişafdan, hansı analoqu olmayan iqtisadiyyatdan danışırlar?

Yeri gəlmişkən, bizimkilər tez-tez Almaniyanı dağıdırlar, bundestaga üçrəngli bayrağımızı taxırlar, şanlı ordumuz tez-tez Berlin küçələrində parad keçirir, o üzdən mən kiçik bir müqayisə aparmaq istədim. Heç də böyük alman şirkətləri ilə yox, adi karandaş istehsalçısı Faber-Kastel-lə. Bu alman şirkətinin keçən ilki gəliri 600 milyon avroya yaxın olub. Manata çevirsək 680 milyon manat edir. Təkcə qələm satmaqla sənin bütöv şirkətlər qrupunu cibinə qoymağa imkanı çatan ölkəni hədələmək də taleyin bir ironiyasıdır.

Elə mənim mətbuat günündə qələm satan firmadan misal gətirməyim də taleyin başqa ironiyasıdır. Neyləyək, bizimki də belə gətirib: ancaq ironiya eləyirik. Əlimizdən başqa bir iş gəlmir. Hərçənd dövlət rəhbərliyinin mətbuata və informasiyaya bu qədər açılması yaxşı perspektiv vəd eləmir. Bir tanış var, həmişə mənə deyirdi ki, prezidentin ətrafı ona yanlış məlumat verir. Keçən dəfəki müşavirədən sonra isə təəssüflə belə söylədi: "Təyyarə biletlərinin, dərmanların baha satılmasından tutmuş, hər məmurun bir biznesə krışalıq eləməsinə qədər hər şeyi bilirmiş". Bəs indən belə narazı insanları necə yola verəcəklər? Yəni "xəbərim yoxdur" siyasəti məncə daha uğurlu idi. Ancaq onu da anlayıram ki, neft pulu azaldığından "xəbərim var" dövrünə keçid məcbur idi. Bir növ, SSRİ-nin axırlarındakı aşkarlıq dövrünü yaşayırıq.

Sonda onu da qeyd edim ki, indiki qloballaşan dünyada "milli mətbuat" termini özü gülünc arxaizmdir. Sən qüsurları yazmayıb qadağan edərsən, başqa ölkələrdə sənin haqqında yazıb məsxərəyə qoyarlar.

# Bu gün Beynəlxalq Banka sədr seçilir

## Məlumatlara görə, İdarə Heyətinin yeni sədri Elman Rüstəmovun adamı olacaq; maliyyə naziri Samir Şərifovun baş bankirin qarşısından geri çəkildiyi bildirilir

**Bu gün Azərbaycan Beynəlxalq Bankının Müşahidə Şurasının növbəti yığıncağıdır. Məlumata görə, iclasda Bankın İdarə Heyətinə yeni sədrin seçilməsi məsələsinə də baxılacaq. Bu da o deməkdir ki, Cahangir Hacıyevin istefasından sonra Beynəlxalq Bankın yeni rəhbərinin kimliyi ilə bağlı söz-söhbətlərə birdəfəlik nöqtə qoyulacaq.**

İndiyə qədər bu vəzifəyə adı hallandırılan şəxslərin aid olduqları çevrələr məsələnin Mərkəzi Bankın sədri Elman Rüstəmovla maliyyə naziri Samir Şərifov arasında əməlli-başlı nüfuz savaşına çevrildiyini göstərir.

Xatırladaq ki, son günlərə qədər bu vəzifəyə ən real namizədlərdən biri kimi Mərkəzi Bankın sədri Elman Rüstəmovun yaxın adamlarından biri - "Aqrarkredit"in rəhbəri Məmməd Musayevin adı hallandırılırdı. Azərbaycan Prezidentinin Beynəlxalq Bankla bağlı iyunun 15-də imzaladığı fərman bu mövzu ətrafındakı mənzərəyə müəyyən qədər aydınlıq gətirdi. Məlum oldu ki, söhbət Məmməd Musayevin Beynəlxalq Bankın sədri təyin edilməsindən yox, bu bankın sağlamlaşdırılması məqsədilə onun problemli aktivlərinin "Aqrarkredit"in idarəçiliyinə verilməsindən gedir.



Son günlər isə Beynəlxalq Bankın İdarə Heyətinin sədri vəzifəsinə namizəd kimi "Azərtürkbank"ın indiki, "Kapital Bank"ın isə keçmiş sədri Elmar Məmmədovun adı hallandırılır. Maliyyə naziri Samir Şərifova yaxın hesab edilən bu şəxsin Beynəlxalq Bankın sədri vəzifəsinə gətirilməsi barədə güman-lar maliyyə nazirinin mövqelərinin möhkəmlənməsi kimi qiymətləndirilir.

Amma redaksiyamıza daxil olan ən son məlumatlara görə, Samir Şərifov hansısa səbəblərdən bu məsələdə mövqeyindən geri çəkilərək Elman Rüstəmovun bu postda görmək istədiyi namizədə güzəştə getməli olub. Belə ki, iyulun 22-də Beynəlxalq Bankın İdarə Heyətinin sədri vəzifəsinə heç kəsin gözləmədiyi tamam başqa bir şəxs - Rəşad Orucov seçiləcək. Adıçəkilən şəxs hazırda Mərkəzi Bankın baş direktoru vəzifəsində çalışır və baş bankirə ən yaxın adamlardan sayılır.

Maraqlıdır ki, Rəşad Orucov həm də Beynəlxalq Bankın sədri vəzifəsinə daha əvvəl adı hallandırılmış Məmməd Musayevin kürəkənidir. Hələlik iyulun 22-sini gözləmək qalır. Əgər bu gün Beynəlxalq Bankın İdarə Heyətinin sədri vəzifəsinə Rəşad Orucovun təyinatı baş tutsa, bu, Elman Rüstəmovun Samir Şərifov üzərində qələbəsi demək olacaq.

❑ **"Yeni Müsavat"**

# Ekspertdən Azərbaycanla bağlı bədbin proqnoz

## Elxan Şahinoğlu: "Neftin qiyməti aşağı düşəcək və bu amil Azərbaycanın gəlirlərinə mənfi təsir edəcək"

**"İran nüvə məsələsində Qərblə razılaşdıqdan sonra ABŞ və Avropa Birliyi ölkələri İranla münasibətləri digər istiqamətlərdə də normallaşdırmağa çalışacaqlar. ABŞ 50 ildən çox qatı düşmən adlandırdığı Kubada səfirlik açdısa, eyni işi İranda da görə bilər".**

"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu bunu İran ətrafında yaranmış yeni situasiyanı "Yeni Müsavat"a şərh edərkən bildirdi. Mərkəz rəhbəri qeyd etdi ki, Böyük Britaniya artıq bu istiqamətdə addımlar atmağa hazırlaşır: "Qərbin bu gün ən böyük problemi və dərdi İŞİD-dir. İran və onun təsiri altında olan "Hizbullah" təşkilatı isə İŞİD-ə qarşı mübarizə aparırlar. Demək, Qərb "düşmənimin düşməni mənim dostumdur" prinsipindən çıxış edərək başqasən terrorçu təşkilata qarşı mübarizə məsələsində də Tehranla əməkdaşlıq edə bilər".

**E.Şahinoğlunun sözlərinə görə, Qərblə İran arasında münasibətlərin normallaşması Azərbaycan üçün də vacibdir:** "Bir neçə il əvvəl beynəlxalq aləmin əsas mövzularından biri ABŞ və İsrailin İrana qarşı hava zərbələri endirəcəyi idi. Bu zaman Azərbaycanın adı çəkilirdi. Deyilirdi ki, ABŞ və İsrail İrana qarşı Azərbaycan ərazisindən istifadə edəcəklər. Rəsmi Bakı hər zaman bu xəbərlərin doğru olmadığını açıqlayırdı. Buna baxmayaraq, İran rəsmiləri, din xadimləri və hərbçilər bu xəbərlərə inanaraq Azərbaycanı təhdid edirdilər. Bu da Azərbaycanla İran arasında münasibətləri gərginləşdirirdi. Qərblə İran razılaşdıqdan sonra isə müharibə ehtimalı ortadan qalxdı, bölgədə gərginlik azaldı, bu da İranın Azərbaycana qarşı təhdidlərinə son qoydu. Doğrudur, sanksiyaların ortadan qaldırılması daha çox İran neftinin dünya bazarına daxil olmasına şərait yaradacaq. Nəticədə neftin qiymətləri aşağı düşəcək və bu amil Azərbaycanın gəlirlərinə mənfi təsir edəcək. Ancaq neftin qiymətləri başqa amillərdən də asılıdır".

**"Atlas" rəhbəri deyir ki, ona görə də İran neftinin dünya bazarına axışı Azərbaycanı narahat etməməlidir:** "Onsuz da Azərbaycanda neft azalır və iqtisadiyyatın qeyri-neft sektoru üzərində qurulması aktuallaşır. ABŞ və Avropa Birliyinin İranla münasibətlərinin normallaşması Azərbaycan üçün aşağıdakı imkanları aça bilər: Birincisi, Azərbaycanla İran arasında iqtisadi və maliyyə əlaqələri genişlənəcək. İrana qarşı sanksiyalar olduqda Azərbaycan hakimiyyəti İranla iqtisadi əlaqələrdən çəkinirdi, bank sektorunda müəyyən qadağalar var idi. İndi isə Azərbaycandan İrana, İrandan da Azərbaycana kapital sərbəst



Elxan Şahinoğlu

şəkildə hərəkət edəcək. Ortaq müəssisələr qurulması imkanı yaranacaq. İki ölkənin sərhəd rayonlarında alış-veriş artacaq. Elə İran rəsmilərinin özləri də sanksiyaların ortadan qaldırılmasından sonra qonşu ölkələrlə iqtisadi əməkdaşlığı genişləndirəcəklərini bildirirlər. İkincisi, iranlıların Azərbaycanda mülk və torpaq sahibi olmalarına şərait yaranacaq. Ayrıca, İrandan daha çox turistin Azərbaycana gəlişinə imkan yaradıla bilər. Bu, Azərbaycana əlavə gəlir mənbəyi saxlayar". **E.Şahinoğlu bildirdi ki, ancaq bunun reallaşması üçün rəsmi Bakı viza siyasətini dəyişdirməlidir:** "Azərbaycan hakimiyyəti ilk növbədə Türkiyə və İran vətəndaşlarına tətbiq etdiyi vizanı ortadan qaldırmalıdır. Əks halda, iranlı turistlər Azərbaycan əvəzinə Gürcüstan və Ermənistana gedəcəklər, gəlirlər də bu iki ölkəyə çatacaq. Elə etməliyik ki, İranda yaşayan soydaşlarımız Ermənistana yox, Azərbaycana gəlməyə və ana yurdlarının bir hissəsində pul xərcləməyə maraqlı olsunlar. Üçüncüsü, İran qazının Avropaya çatdırılması üçün Brüssellə Tehran arasında danışıqlar başlayacaq. İran öz qazını Avropaya çatdırmaq üçün Azərbaycanla danışıqlara başlaya bilər. Məqsəd İran qazını tikilməkdə olan TANAP və TAP boru xətləriylə Avropaya çatdırmaqdır. İran qazının bu boru xətləri ilə Avropaya daşınması Azərbaycanın iqtisadi və siyasi maraqlarına uyğundur. Çünki boru xətləri əlavə qazla təmin olunacaq və alternativ qazın Avropaya çatdırılması məsələsində də Tehran Rusiyanın yox, Azərbaycanın yanında yer alacaq. Dördüncüsü, Azərbaycan İrana daxil olmaq istəyən Qərb kapitalı üçün körpü rolunu oynaya bilər. ABŞ-ın və Avropa Birliyinin böyük neft şirkətləri indidən İranla əməkdaşlığa maraq göstərirlər. Həmin şirkətlərin bir hissəsi Azərbaycanda fəaliyyət göstərir və Bakıda ofisləri var. Həmin şirkətlər Azərbaycan üzərindən İrana hərəkət edə bilərlər, texnikalarını Bakının Xəzərdəki limanlarından İran sahillərinə daşıya bilərlər. Beləliklə, rəsmi Bakı elə etməlidir ki, İran bölgə əməkdaşlığında Ermənistana yox, Azərbaycana üstünlük versin. Çünki sanksiyaların ortadan qaldırılmasından sonra İran qonşu ölkələrdən hansı ilə mümkün olsa onunla sıx iqtisadi əlaqələr qurmağa çalışacaq. İran böyük bazardır, bu bazardan istifadə etmək lazımdır. Ermənistan kasıb, Azərbaycan isə varlı ölkədir. Ona görə elə etmək lazımdır ki, İran Cənubi Qafqazın varlı ölkəsi ilə əməkdaşlıq etsin və Dağlıq Qarabağ münaqişəsinin həllində Tehran Azərbaycanın maraqlarını ön planda tutsun".

❑ **Cavid TURAN**

# Bütöv Azərbaycan ideyası tarixmi oldu?

**Son illər Bütöv Azərbaycan ideyası tənəzzül dövrünü yaşayır. Tarixən azərbaycanlıların yaşadığı ərazilərin birləşdirilməsini qarşısına əsas məqsəd qoyan bu ideyanın daşıyıcıları da sanki qeybə çəkiliblər. Heç şübhəsiz ki, yaranan mövcud vəziyyət millətini sevən hər kəsi ciddi narahat edir.**

Əvvəllər bu ideyanı özündə birləşdirən çoxlu sayda təşkilatlar var idi. Amma son illərdə bu qurumların demək olar ki, fəaliyyətləri sıfıra enib. Çoxları Bütöv Azərbaycan ideyasının zəifləməsinə səbəb kimi, bu ideyanın əsas ideoloqlarından olan sabiq prezident Əbülfəz Elçibəyin vəfatını göstərirlər. Şübhəsiz ki, bu amil də əsas rol oynadı. Amma nəzərə alsaq ki, Elçibəy rəhmətə gedərkən özündən sonrakı nəsillərə Bütöv Azərbaycan Birliyi (BAB) adlı təşkilat qoyub getmişdi. Hətta onun ölümündən bir müddət sonraya qədər bu təşkilat Bütöv Azərbaycan ideyası ətrafında səmərəli işlər gördü. Amma sonda lider yoxluğu yenə də özünü büruzə verdi. Bütün bunları düşünəndə Elçibəyin ölümünü bu ideyanın zəifləməsinə səbəb göstərən şəxslərə haqq vermək olur.

Bu ideyanın zəifləməsində İran məsələsinin rol oynaması da müzakirə mövzusudur. Bəziləri hesab edir ki, əvvəllər dünya gücləri İrana təzyiq vasitəsi kimi bu amildən istifadə edirdilər. Dəyişən dünya şərtlərinin BAB-ın onsuz da xeyli zəifləmiş fəaliyyətinə necə təsir edəcəyi də maraq doğuran mövzulardandır.

**BAB İdarə Heyətinin sədri Aqil Səmədbəyli bu fikirlərlə razılaşmır. O hesab edir ki, Bütöv Azərbaycan ideyası daim yaşayacaq:** "Nə qədər ki, Bütöv Azərbaycan qurulmayıb, nə qədər ki, torpaqlarımız işğaldan azad olmayıb, nə qədər ki, 50 milyondan çox Azərbaycan xalqı bir bayraq altında toplanmayıb, Bütöv Azərbaycan ideyası yaşayacaq. Quzeydə mövcud rejimin yürütdüyü cəmiyyəti idealsızlaşdırma siyasətinin nəticəsində ideoloji təşkilatlar çox zəifləyib. İndi Elçibəy cismən yoxdur. Bu çox böyük və həlledici faktordur. Amma Güneydə Elçibəyin səpdiyi toxumlar boy atıb. İndi bu ideya Azərbaycanın o tayında daha güclüdür. Türk dünyasının heç bir yerində Güneydəki qədər güclü Milli Hərəkat yoxdur. Eyni vaxtda 70 min bozqurd "Haray-Haray mən Türkəm" deyə hayqırır. Bunlar hamısı Bütöv Azərbaycan ideyasının daşıyıcılarıdır. Amma bu ideyanın daşıyıcılarının sayı təbii ki, qat-qat çoxdur. Onların hamısının eyni vaxtda bir yerə toplanmaq imkanı yoxdur. İnşallah, onun da vaxtı gələcək".

**BAB İdarə Heyətinin üzvü Mehriban Vəzir bu ideyanı hazırda daşıyacaq liderin olmadığını qeyd etdi:** "Rəsulzadə 1920-ci ildə parlamentdəki çıxışında dedi ki, bayrağımızı yerə atmayın, icazə verin özüm açım. Orada bir nitq söylədi. Bildirdi ki, bu bayraq bu gün Azərbaycan türkünün yanmış qəlbinə enir, gün gələcək Azərbaycan gəncliyi bu bayrağı oyanmış qəlblərdən qaldırıb yerinə dikəcək. Dediyi sözlər həyata keçdi. Elçibəy o bayrağı dikəltdi. İdeyalar belədir. Bu gün Elçibəy cismən yanımızda yoxdur. Böyük ideyanı daşıyacaq lider hazırda yoxdur. Amma bu o demək deyil ki, ideya aradan çıxıb. İdeya Azərbaycan türkünün yanmış ürəyindədir. Bir gün həmin ideyanı göylərə qaldıracaq lider yetişəcək. Bu böyük ideya ölə bilməz. Elçibəy bu ideyanın məramnaməsini yaratmışdı, hər həftə dərslər keçirdi. Azərbaycanın bütöv olmasının əsaslarını öyrədirdi. Bunları öyrənmədən bu ideyanı yürütmək olmaz. Bu gün buna şərait yoxdur".



**Aqil Səmədbəyli:** ""Nə qədər ki, Bütöv Azərbaycan qurulmayıb, bu ideya yaşayacaq"



**Mehriban Vəzir:** "Bütöv Azərbaycan ideyası ona görə var idi ki, Elçibəyin varlığı mövcud idi"

**Mehriban Vəzir Bütöv Azərbaycan ideyalarındakı İran məsələsinə də toxundu:** "Proseslər gözümüzün qarşısında olub. Onlar heç bir yerdən maliyyələşmirdilər. Elçibəy var idi, bu ideya ayaqda idi. Elçibəy yoxdur, sönüb. BAB-ın hansı imkanı, pulu var idi? Vaxtı ilə bundan Sovetlər Birliyi və başqa dövlətlər istifadə edib. Bu, ideyanın başqaları tərəfindən oğurlanmasıdır. Bütün dünya yığışsa, Azərbaycanda bir ideya yarada bilməzlər. Bütöv Azərbaycan ideyası ona görə var idi ki, Elçibəyin varlığı mövcud idi".

**Bütöv Azərbaycan Ocaqlarının başqanı Zakir Əlisoy Elçibəyin vəfatının bu ideyanı zəiflətdiyini dedi:** "Azərbaycanın Güney və Quzeyində Elçibəy qədər qəbul edilən lider olmadı. Onun ölümündən sonra yaranan inamsızlıq, siyasi liderlərin ideyanı apara bilməmələri indiki duruma gətirib çıxardı".

**Zakir Əlisoy bu ideyadan İrana təzyiq vasitəsi kimi istifadə edilməsi fikirlərinə münasibət bildirdi:** "Elçibəy Kələkidən qayıdarkən həmin vaxtın əziyyətlərinin şahidi olmuşam. Güneydə Bütöv Azərbaycan ideyası aktiv olmaya bilər. Amma orada hər gün milli oyanış prosesi gedir. Əvvələr Təbriz və başqa yerlərdə aktivlik yüksək idi. Artıq indi digər yerlərə keçib. Hesab edirəm ki, ABŞ və İran arasında olan razılaşma Güney Azərbaycan məsələsinə təkan vermiş olacaq. Bu İranın məğlubiyyəti, dini açılım idi. İrana yeni nəfəs gələcəksə, demokratik abı-hava gələcəksə, digər proseslər də güclənəcək".

❑ **Cavanşir ABBASLI**

# Qərb Azərbaycana görə Kremlə qarşı ssenari hazırlayır

## Rusiyanın yeni "böyük müharibə" hazırlıqlarının ilginc pərdəarxası; Putinin yeganə qorxusunun arxasında nə durur?..



**Vladimir Putin**

**Rusiya prezidenti Vladimir Putin öz ölkəsində nə qədər yüksək populyarlığa malik olsa da, əksər ekspertlər əmindir ki, bu bir avtoritar populyarlıqdır və xofa əsaslanır. Yəni Putinin ayağı azacıq büdrəyən kimi, şişirdilmiş nüfuz dərhal düşəcək. Çünki Rusiya rəhbəri bu dəqiqə 85%-lik reytinqə malik deyil, bunun heç bir sosial-iqtisadi, siyasi, demokratik əsası yoxdur. Təkcə o fakt ki, beynəlxalq sanksiyalardan sonra rusiyalılar daha az yeməyə və ən ucuz siqaret çəkməyə keçiblər, özlüyündə çox şey deyir.**

Təbii ki, hamıdan çox Putin yaxşı fərqindədir ki, onun reytinq göstəricisi niyə kəllə-çarxdadır. Odur ki, indidən bəzi "bəzi preventev" tədbirlər görmək zorundadır. Bu tədbirlər isə iki istiqamətlidir - daxildən potensial qiyam nöqtələrini susdurmaq, bir də ki, obıvatelin diqqətini "Rusiya naminə" xarici müharibələrlə (əməliyyatlarla) yayındırmaq.

**"Rusiya prezidenti Vladimir Putin inqilabın baş verməsindən qorxur ki, devrilə bilər". Bu sözləri hərbi ekspert Aleksandr Qolts bildirib (axar.az). "Putini Krım və Ukraynanın şərqini işğal etməyə nə məcbur etdi" sualına Qolts belə cavab verib:** "Putin Kiyev Maydanında baş verən inqilabı gördü, bununla öz rejiminə qarşı baş verə biləcək real təhlükənin şahidi oldu. Bu dəhşət Rusiya sərhədinə yaxınlaşır. Əvvəlcə Gürcüstan, sonra Ukrayna və sabah Rusiya. Budur, Putin inqilaba qarşı durur. Buna görə də Putin Donetskdə Ukrayna ilə deyil, ABŞ-la vuruşur".

Xatırladaq ki, az öncə Rusiya mediasında "ABŞ oliqarxların əli ilə Putinə qarşı qiyam hazırlayır" iddiası yer almışdı. Dövlət Dumasının deputatı, "Milli-Azadlıq Hərəkatının" lideri Yevqeni Fyodorov keçirdiyi mətbuat konfransında gözlənilməz açıqlama ilə çıxış edərək, "Vladimir Putinin oliqarxların "texniki beşinci kolon" adlandırmış, Qərbdən yönləndirilə biləcək oliqarxların dövlət çevrilişi barədə xəbərdarlıq etmişdi. Jurnalistlər isə ona sahib olduqları biznesləri xarici təsir altında olan iş adamlarının adlarını sadalamışdılar. Bu sırada Gennadi Timçenko, Potenberq qardaşları, Yuri Kovalçuk, Əlişir Usmanov və azərbaycan əsilli Vahid Ələkbərovun adları yer alırdı.

Deputat bütün oliqarxları "xaricilər" adlandırmışdı. O vurğulamışdı ki, ABŞ həmin oliqarxları bizneslərinin çökdürülməsi ilə təhdid edərək, onlara həmişə təsir göstərə bilər. Eyni zamanda iddia eləmişdi ki, qiyamda iştirakla bağlı danışıqlar artıq başlayıb.

*****

Böyük KQB təcrübəsi olan Putin sözsüz ki, bunu da ciddiyə alır və oliqarxları, milyarderləri tam nəzarətdə saxlamağa çalışır. Paralel olaraq deyildiyi kimi, müharibə amili ilə onları və cəmiyyəti ciddi şəkildə təhdidi edir. Bəzi iddialara görə, o, artıq "böyük müharibə hazırlığına" başlayıb.

"Rusiyanın qərb sərhədlərinə ölkənin müxtəlif bölgələrindən ordunun toplanması böyük müharibəyə hazırlıqdan xəbər verir". Belə bir açıqlama ilə rusiyalı diplomat Konstantin Borovoy çıxış edib.

"Putin yalnız Ukraynaya, həmçinin Baltika ölkələrinə qarşı deyil, NATO-ya qarşı da hazırlaşır. Hitler dövründə də qonşu ölkələrin ərazi bütövlüyü pozulurdu. Etnik təmizləmə, həbs düşərgələrin yaradılması və s. Putin dəfələrlə bu addımı atıb. O, Gürcüstan, Ukrayna ərazilərinə hücum edib. Rusiya prezidenti böyük müharibəyə hazırlaşır. Təbliğat kampaniyası aparılır ki, vətəndaşları nəyəsə inandırmaq mümkün olsun", - diplomat qeyd edib.

*****

Rusiyanın təhdidlərinin ciddiliyini nəzərə alan Qərb də təbii ki, yerində sakit oturmayıb. Kremlin Ukraynadan əlavə NATO üzvləri olan Baltikyanı ölkələri, Polşanı da vaxtaşırı təhdid eləməsi, hətta nüvə hədəsi səsləndirməsi ona gətirib ki, Avropada NATO və ABŞ hərbi (çevik) qüvvələrinin sayı birə-üç artırılıb, Mərkəzi Avropada Raketdən Müdafiə Sisteminin qurulması işi sürətləndirildi.

Üstəlik, bugünlərdə 3 ölkənin Rusiya hərbi hədəsinə qarşı birləşdiyi məlum olub. Məlumata görə, Ukrayna, Polşa və Litva birgə hərbi briqada yaradacaq. Bu barədə Ukrayna Müdafiə Nazirliyi açıqlama yayıb.

Orada bildirilir ki, 3 ölkənin rəsmiləri iyulun 24-də Lvovda (Ukrayna) məsələ ilə bağlı saziş imzalayacaq. Sazişi Polşa baş nazirinin müavini Tomaş Semonyak və Litvanın müdafiə naziri Yuozas Olekas imzalayacaq. Ukraynanı təmsil edəcək şəxsin isə adı açıqlanmayıb. Yeni briqada Litpolukrbriq adlanacaq.

Diqqət edildisə, 3 ölkədən ikisi NATO üzvüdür. Bu o deməkdir ki, həmin iki ölkə bu və ya digər səbəbdən hansısa əməliyyatlara cəlb olunsa, alyansın nizamnaməsinin 5-ci bəndi dərhal işə düşəcək və bütün alyans müharibəyə cəlb olunacaq.

*****

Əslində bu, Moskvaya Qərbin başqa bir mesajıdır ki, özünü yığışdırsın, korrekt olsun, Ukraynaya, postsovet məkanının digər bölgələrinə, o cümlədən Güney Qafqaza birbaşa hərbi müdaxilə niyyətindən daşınsın. Söhbət Azərbaycanın da yerləşdiyi regiondan gedir. Şimal qonşumuzun son vaxtlar Gürcüstana qarşı başladığı yeni sərhəd avantürası, bölgəyə yeni silah-sursatlar yığmaqda davam eləməsi də ötən saylarımızda qeyd edildiyi kimi, məhz Qərbin və onun bölgədəki maraqlarının, ölkəmizin mənafeyinə qarşı yönəlib.

Bu xüsusda Qərb-Rusiya rəqabətinin sonucu Bakı üçün heç vaxt olmadığı qədər müstəsna önəm kəsb edir yazsaq, yanlış olmaz. Belə görünür, önümüzdəki dönəmdə ABŞ və onun Avropadakı müttəfiqləri Rusiyaya qarşı təkcə iqtisadi xarakterli kontur-addımlarla kifayətlənməyəcək, eyni zamanda hərbi xarakterli ssenariləri də işə salacaqlar.

Bu ssenarilər heç şübhəsiz, həm də Azərbaycana və Qərbin Azərbaycandakı maraqları naminə olacaq və gündəmə gələcək. Ən azı o səbəbdən ki, Azərbaycanın Qərbə əsas qapısı sayılan Gürcüstanın ram edilməsi, bölgənin açar ölkəsi olan Azərbaycanı asanca Kremlin çətirə altına gətirəcək.

❑ **Siyasət şöbəsi**



# Zərdabi iztirabları...

**Hüseynbala SƏLİMOV**

**"Yaxşı kişilər yaxşı atları minib davaya yollandılar"... Qəribədir, bu sözlər axır vaxtlar heç beynimdən çıxmır. Kitab oxuya-oxuya, yazı yaza-yaza, yolda gedə-gedə elə hey özüm-özümə onları pıçıldayıram...**

İndi nədən bunlar təkrar yadıma düşdü? Bu yazı işıq üzü görəndə milli mətbuatın artıq 140 illiyi qeyd olunacaq. Mən elə "zərdablı adamı"da - Həsən bəy Zərdabini də həmişə həmin o yaxşı kişilərdən, köhnə kişilərdən hesab etmişəm...

19-cu əsrdə iki böyük və həm də çox maraqlı şəxsiyyət yaşayıb - biri M.F.Axundov, biri də H.Zərdabi... Bununla heç də digərlərinin önəmini kiçiltmək istəmirəm. Amma bu iki şəxsiyyət milli-mədəni sferaya yeni konsepsiya gətiriblər. Fəqət, onların haqqında o qədər gözəl sözlər yazılıb ki, çətin ki, mən həmin sözlərin sırasını artırmaq iqtidarında olum...

Bir az əvvəldən, bir neçə il bundan əvvəldən başlayacam... Jurnalistliyə təzə başladığım vaxtlarda bir nəfər elə hey deyirdi ki, yazını yazmaq bir igidlikdirsə, onu oxutmaq iki igidlikdir. O vaxt bu, mənə, ixtisasca jurnalist olmayan bir adama bir az qəribə görünür və hətta inandırıcı təsir bağışlamırdı. Amma bir az keçəndən, özüm də qəzetçiyə çevriləndən sonra gördüm ki, o adam haqlı imiş...

Bu mənada bizim H.Zərdabi qəzetçilik iztirabını, yazını oxutmaq əzabını hamıdan əvvəl - 140 il bundan əvvəl duyub və hiss edib. İndi bizə çox qəribə görünə bilər, amma "Əkinçi" də oxucuların sayı ilə öyünə bilmirdi. Hətta iş o yerə gəlib çatdı ki, Həsən bəy onun nəşrini dayandırmaq məcburiyyətində qaldı...

Görünür, elə bizim pis oxucu olmağımız da səbəbsiz deyil. Yəqin ata-babalarımız da yaxşı oxucu olmayıblar, əgər onlar yaxşı oxucu olsaydılar bu keyfiyyəti bizə də aşılayardılar...

İndi, 140 ildən sonra, milli mətbuat haqqında nə demək olardı? Həmin iztirabı biz bu gün də yaşayırıq - kağız mətbuat çox az oxunur və hətta demək olar ki, oxunmur...

Bunu təkcə hakimiyyətin təzyiqilə izah etmək çətindir. Bəli, deyirlər ki, məsələn, metronun girişlərindəki satış yerləri yığışdırılandan sonra qəzetlərin satışı azaldı. Amma fikir vermişik ki, bütün girişlərin yanında müasir köşklər qurulub və onların hamısında demək olar ki, qəzetlər satılır. Amma qəzet alan azdır və yaxud da demək olar ki, yoxdur...

Digər bir səbəbi internetlə bağlayırlar. Guya ki, insanların əksəriyyəti qəzetlərin internet vesiyasına üstünlük verir. Amma internetin nəhəng çevrəsi, auditoriyası olan ölkələrdə, ABŞ-da, Fransada, İngiltərədə və hətta Türkiyədə yazılı, kağız media qalır və kifayət qədər də yaxşı oxunur... İndi bunu necə başa düşək: məgər Azərbaycanda internet istifadəçilərinin sayı bu ölkələrdəki internet istifadəçilərindən çoxdur?..

Bizə elə gəlir ki, hakimiyyət qəzetlərə tamam başqa tərəfdən zərbə vurub. Dünyada qəzetlər gəliri heç də bilavasitə satışdan götürmürlər. Hətta ölkələr var ki, orada qəzetlər pulsuz paylanır...

Əsas gəlir mənbəyi reklamdır. Bu ölkədə isə qəzetlərə reklam vermirlər... Amma bütün hallarda qəzetlərin oxucusu olmalıdır. Bu gün isə reklam verilib-verilməməsindən asılı olmayaraq, demək olar ki, oxucu çox azdır...

Bəli, intenet versiyaları oxunur. Bunu etiraf edirik. Amma qəzetlər hələ ki internetdən, internet versiyalarından gəlir götürməyin yollarını tapa bilməyib.

Nə gizlədək? Hamımız hələ də belə hesab edirik ki, bütün bunlar müvəqqətidir. Və elə bir vaxt gələcək ki, biz yenidən insanların qəzet köşkləri qarşısında toplaşdığını görəcəyik. Yenə də insanların əlində qəzet görəcəyik...

Amma bu, olmaya da bilər. Bəlkə də, ya vəlvələdən, ya da zəlzələdən, indi biz kağız medianın labüd qürubunu görürük...

Amma tamam ümidsizlik üçün də əsas yoxdur. Rusların bir misalı var, deyir ki, xoşbəxtlik olmazdı, amma bədbəxtlik kömək etdi. İnternet versiyaları yaxşı oxunur və bu, müəyyən mənada kağız qəzet oxucularının sayını azacıq da olsa kompensasiya edə bilir...

Bir məsələ də var ki, bu, artıq bizim peşəmizdir. Bazarın isə bir qanunu var - alıcı, yəni istehlakçı həmişə haqlıdır. İndi oxucu da yəqin ki, həmişə haqlıdır. Bəli, elektron media ilə kifayətlənməyənlər, alternativ fikir və xəbər axtaranlar qəzetlərin internet versiyalarını oxuyurlar. Qalanlarsa bizim elektron medianın verdikləri ilə kifayətlənirlər...

Nə etmək olar? Bizim işimiz yazmaq və oxutmaqdır. Hətta 140 ildən sonra bu problem eyni kəskinliyi ilə qalsa belə...

# Azərbaycana qarşı "sülhməramlı" tələsi - Rusiya bizdən nə istəyir?

**Qarabağ məsələsi ətrafında yaranmış son hərbi-siyasi gəlişmələr fonunda yeni situasiyanın, daha doğrusu, Qərblə Rusiya arasında rəqabət mühitinin yaranması barədə əvvəlki saylarımızda yazdıqlarımız təsdiqlənir. Fakt budur ki, ABŞ sentyabr ayında Azərbaycan və Ermənistan prezidentlərini görüşdürməyə hazırlaşdığı bir məqamda Moskva da analoji təşəbbüslə çıxış edib.**

Bəzi məlumatlara görə, Kreml münaqişə bölgəsinə Rusiya "sülhməramlılarının" göndərilməsi məsələsini təzədən gündəmə gətirmək istəyir. Az öncə İrəvanda jurnalistlərlə görüşündə amerikalı həmsədr Ceyms Uorlik bildirmişdi ki, Dağlıq Qarabağ münaqişəsinin hərtərəfli həlli üzrə aparılan danışıqların bəndlərindən biri beynəlxalq sülhməramlı qüvvələrin münaqişə zonasına yerləşdirilməsi haqqındadır.

Həmsədrlər artıq bölgədədir və onlar iyulun 22-23-də Bakıya gələrək Azərbaycanın rəhbərliyi ilə görüşlər keçirəcəklər. Hazırda Minsk Qrupu həmsədrlərinin işğal atındakı Dağlıq Qarabağa səfərinin təşkili məsələsi həll edilir. Regiona səfərin əsas məqsədlərindən biri də Azərbaycan və Ermənistan dövlət başçılarının görüşünün təşkilinə nail olmaqdır.

***

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn "Yeni Müsavat"a açıqlamasında "sülhməramlılar" məsələsinə həssas yanaşmanın zəruriliyini vurğuladı. Eyni zamanda o, 90-cı illərin əvvəllərində analoji təkliflərin mövcudluğuna diqqət çəkdi:** "Münaqişə zonasında sülh müqaviləsi bağlandıqdan sonra tərəflər arasında meydana çıxa biləcək silahlı konfliktlərdən sığortalanma və həmin müqavilənin təminatçısı qismində rol alacaq, xüsusilə dinc əhalinin təhlükəsizliyini etibarlı şəkildə qoruya biləcək vasitə kimi sülhməramlıların Dağlıq Qarabağda, təmas xətlərində, sərhəddə müvəqqəti olaraq yerləşdirilməsi ideyası bütün sülh sazişi layihələrində əks olunub. O cümlədən bu, ilk dəfə olaraq 1993-cü ilin may və iyun aylarının ovaxtkı ATƏM-in *(indiki ATƏT-red.)* tərəflərə təqdim etdiyi və tərəflərin razılıq verdiyi sülh layihəsində öz əksini tapıb. İlk dəfə olaraq o dövrdə ATƏM-in *(ATƏT)* sülhməramlı qüvvələrinin yaradılması və onun Dağlıq Qarabağda yerləşdirilməsi nəzərdə tutulmuşdu. Eyni zamanda vaxtaşırı Rusiya tərəfi münaqişə zonasında, daha dəqiqi, Dağlıq Qarabağ ərazisində sülhməramlı və başqa status-da rus qoşunlarının yerləşdirilməsini irəli sürüb. Bunlar fərqli məsələlərdir. Azərbaycan tərəfinin mövqeyi bundan ibarət olub ki, Ermənistanın işğalçı qoşunları Azərbaycan ərazisini tamamilə tərk etdikdən və işğal zonasındakı qeyri-qanuni silahlı birləşmələr ləğv edildikdən, dinc əhali, qaçqınlar öz doğma torpaqlarına qayıtdıqdan sonra və ya bununla paralel müvəqqəti olaraq zonadan beynəlxalq sülhməramlı qüvvələr BMT mandatı ilə mövcud ola bilər. Bunlar artıq nizamlamanın texniki məsələləridir. Lakin istənilən başqa bir formada indiki işğal status-kvosunun əbədiləşdirilməsi təhlükəsi yaradan hər hansı bir "sülhməramlı" əməliyyat yolverilməzdir. Bu məsələyə olduqca ehtiyatlı yanaşmaq lazımdır".



**Pənah Hüseyn:** "İstənilən formada indiki işğal status-kvosunun əbədiləşdirilməsi təhlükəsi yaradan "sülhməramlı" əməliyyat yolverilməzdir"



**Ərəstun Oruclu:** "52 yaşım olmasına rəğmən, döyüşməyə hazıram, özü də bu gün müharibə təbliğatı aparanlarla çiyin-çiyinə, ön cəbhədə"

**Politoloq Ərəstun Oruclu isə sosial şəbəkədəki şəxsi səhifəsində bu barədə narahatlığını bölüşüb:** "Dünya mətbuatında Azərbaycanın müharibəyə hazırlaşması barədə yazıların, məlumatların durmadan artması ölkə ətrafında mövcud olan neqativ fikirləri daha da genişləndirir. Belə postları yazanda bizim psevdopatriotlar qıcıqlanır. Sanki mən ölkəmin torpaqlarının işğal altında qalması ilə razılaşıram və başlayırlar elə pafoslu şərhlər yazmağa ki, sanki bu ölkəni bunlardan başqa sevən, onun qayğısına qalan yoxmuş. Bütün bunlara baxmayaraq, şəxsən mən belə düşünürəm ki, mövcud beynəlxalq vəziyyət şəraitində müharibə başlasa, Azərbaycan indikindən daha çətin duruma düşəcək və bunu da yazmağı özümə borc bilirəm: işğal altındakı ərazilərə "sülhməramlı qüvvələr" adı altında xarici qoşunlar yeridiləcək, erməni separatizminin beynəlxalq legitimləşdirilməsi prosesi başlayacaq, Azərbaycanın müstəqilliyinə ciddi xələl gələcək, ölkə ağır itkilər verəcək, Azərbaycanın demokratik inkişafı daha bir neçə onillik geri atılacaq və s. Bunları əsla ehtimal kimi yazmıram, son vaxtlar Dağlıq Qarabağ münaqişəsi ətrafında gedən müzakirələrin, səsləndirilən bəyanatların, nüfuzlu media vasitələrində yazılan ciddi məqalələrin əsaslı təhlili bu qənaətə gəlməyə əsas verir. Müharibə məsələsinə gəlincə isə 52 yaşım olmasına rəğmən, döyüşməyə hazıram, özü də bu gün müharibə təbliğatı aparanlarla çiyin-çiyinə ön cəbhədə. Həm də arxada Stalin ordusunda olduğu kimi, döyüş meydanından qaçanları güllələmək üçün cəza dəstələrinin yerləşdirilməsi şərtilə".

**Konkret situasiyada Rusiyanın Azərbaycandan nə istədiyi, ən müxtəlif təzyiq rıçaqlarına əl atmaqda məqsədinin nə olduğuna gəldikdə, Oruclu bildirdi ki, Kremlin məqsədi Azərbaycanı tam şəkildə Rusiyanın təsir dairəsinə salmaqdan ibarətdir:** "Söhbət həm hərbi, həm siyasi, həm də iqtisadi mənadan gedir. Siyasi sahədə müəyyən əməkdaşlıq var. Amma xüsusilə indi Tehranın Qərblə münasibətlərini normallaşdırdığı bir şəraitində Rusiya İranın Azərbaycanın layihələrində iştirak edəcəyindən ehtiyatlanır. Ona görə də çalışır ki, bu məkana tam nəzarət etsin".

**Ekspertə görə, Qarabağ ətrafındakı vəziyyətə müdaxilə və digər məsələlər hamısı burada vasitə rolunu oynayır:** "Əsas məsələ bölgəni nəzarətə götürməkdir ki, Rusiyaya alternativ enerji layihələrinin qarşısı alınsın və enerji asılılığı saxlansın".

❑ **Cavid TURAN**

# FTX azərbaycanlı silah baronunu yaxaladı

**Rusiyanın Federal Təhlükəsizlik Xidməti (FTX) Avropa İttifaqı ölkələrindən və Ukraynadan silah qaçaqmalçılığı həyata keçirən, Azərbaycan vətəndaşının başçılıq etdiyi mütəşəkkil cinayətkar qruplaşmanı zərərsizləşdirib.**

Virtualaz.org saytı xəbər verir ki, FTX-dən yayılan rəsmi açıqlamaya əsasən, bu ilin iyul ayında Smolensk vilayətində növbəti silah partiyasını satmağa cəhd edərkən kriminal biznesin təşkilatçılarından bir neçəsi həbs edilib.

Onlardan biri əvvəllər həbsdə olmuş Azərbaycan vətəndaşıdır.




"Bu əməliyyatla eyni vaxtda ölkənin 12 regionunda mütəşəkkil cinayətkar qrupun daha 14 fəal üzvü yaxalanıb, onlardan üçün hazırda xidmətdə olan polisdir"- deyə məlumatda bildirilir.

FTX bildirir ki, mütəşəkkil cinayətkar qruplaşma öz əməllərini ört-basdır etmək üçün saxta sənədlərdən istifadə edib, şəxsiyyətini təsdiq edən sənədləri və nəqliyyat vasitələrinin nömrələrini saxtalaşdırıb.

Xüsusi əməliyyat nəticəsində dövriyyədən xaricdə və Rusiyada istehsal edilən 150 vahiddən çox odlu silah, o cümlədən "Kalaşnikov" avtomatları, tapança-pulemyotlar, karabinlər, M-16, M-4 və G-3 avtomatik tüfəngləri, "Glock", "Çezet", "Dezertİql", "Beretta" tapançaları, qumbaraatanlar, müxtəlif çaplı döyüş sursatları, partlayıcımaddə və s. aşkar edilib.

Habelə döyüş silahlarının hazırlanması və modernizə olunması ilə məşğul olan dörd sex ləğv edilib. Qruplaşmanın özünün döyüş sursatları hazırlamaq üçün xüsusi emalatxanası da olub.

FTX bandanın qalan üzvlərini yaxalamaq üçün əməliyyatı davam etdirir.

# Obamanın üç böyük uğuru: bin Laden, Kuba və İran...

## 2016-cı ildə prezident postunu təhvil verəcək Barak Obama ABŞ-ın illər uzunu həll olunmayan üç mühüm problemini çözməklə tarixə düşdü

**2016-cı ildə ABŞ-da növbəti prezident seçkiləri keçiriləcək. Qanunvericiliyə əsasən iki müddətə prezident olmuş hazırkı prezident Barak Obama qarşıdakı seçkilərdə iştirak etməyəcək. Artıq Amerikada seçki kampaniyasının ilk mərhələsi, yəni namizədliyə iddialıların seçki yarışı başlayıb. Ölkənin taleyini həll edən iki əsas partiyanın - Respublikaçı və Demokratlar partiyalarından olan namizədlər partiyadaxili seçimlərlə öz əsas namizədlərini müəyyən edəcək.**

Son illərdə keçirilən seçkilərdə respublikaçılar önə çıxsalar da, hazırkı prezident, demokratların namizədi Obamanın öz partiyası üçün seçkilərdə həlledici təsirə malik olacaq bir sıra uğurları miras qoyacağı aydındır. Prezident Barak Obama ötən 7 ildə bir sıra ciddi uğurlara imza atıb ki, bununla nəinki yalnız sələfi Buşdan seçilib, ümumiyyətlə, son onilliklərdə ABŞ-ın əsas problemlərini həll etməklə tarixə düşüb.

B.Obamanın vəzifədə olduğu dönəmdə bir sıra uğurları olsa da, ən böyük və əsas 3 uğurlu fəaliyyəti var ki, yalnız Amerika deyil, bütövlükdə dünya üçün mühüm hadisə hesab oluna bilər. 2009-cu ilin yanvarında Barak Obama dünyanın bir nömrəli ölkəsinin birinci şəxsi postunu qalmaqallı prezident Corc Buşdan təhvil alarkən ABŞ-ın qlobal imici ciddi şəkildə zədəli idi. Antiterror savaşı, Əfqanıstan və İraqda müharibənin gətirdiyi uğursuzluqlar, müsəlman şərqində, bütövlükdə dünyada ABŞ-ın imicinə ciddi zərbə olmuşdu. Üstəlik, başlayan qlobal iqtisadi böhranın gətirdiyi gərginliklər, Gürcüstan müharibəsindən sonra Rusiya ilə münasibətlərdə gərginlik vardı.

Hakimiyyətə gəldikdən dərhal sonra Türkiyəyə, daha sonra Misirə səfər edən Obama müsəlman dünyasına sülh mesajları verməklə ABŞ-ın Buşdan sonra müsəlman dünyasında yeni siyasi xətt yürüdəcəyini ortaya qoydu. Eyni zamanda Barak Obama İraq və Əfqanıstandan Amerika ordusunu çıxaracağına söz verdi və sonrakı illərdə bu vədini reallaşdırdı.

Ancaq təbii ki, Obamanın ən böyük uğuru dünya çapında ciddi hadisəyə çevrilən 3 hadisə idi. Bunlar: "əl-Qaidə" terror təşkilatının lideri, 10 il axtarışda olan Üsamə bin Ladenin məhv edilməsi, İranla 36 il davam edən və son 12 ildə müharibə həddinə çatan münasibətlərin diplomatik danışıqlar yolu ilə nizama salınması və nəhayət, 50 ildən artıqdır davam edən Kuba ilə gərginliyin ortadan qaldırılması. Yeri gəlmişkən, qeyd edək ki, artıq Kubranın Vaşinqtonda səfirliyi ötən gündən fəaliyyətə başlayıb. Vaşinqtonda yerləşən Kubanın ABŞ-dakı maraqlarını təmsil edən ofisin binası qarşısında Kuba dövlət himninin sədaları altında Kuba bayrağı ucaldılıb.

Qeyd edək ki, ABŞ və Kuba arasında diplomatik münasibətlər 1961-ci ildə Karib böhranı zamanı dayandırılıb. Həmin vaxt Kubada qurulan sosialist respublikasının müdafiəsi adı altında, əslində isə ABŞ-ın Türkiyəyə "Yupiter" raketləri yerləşdirməsinə cavab olaraq SSRİ adaya ballistik raketlər yerləşdirmək qərarı "soyuq müharibənin" ən gərgin mərhələsinin başlamasına səbəb olmuşdu. Karib böhranından sonra Kuba və ABŞ arasında diplomatik münasibətlər dayandırılıb, hətta kəskin düşmənçilik ritorikası davam edib, hər iki ölkənin paytaxtında yalnız maraqlar bölməsi fəaliyyət göstərib.

Ancaq Obamanın prezidentliyi dönəmində Vaşinqton Kuba ilə diplomatik danışıqları bərpa edib. Nəhayət, ötən il danışıqlar müsbət nəticə verib və tərəflər diplomatik münasibətləri bərpa etmək haqda razılığa gəliblər.

Ötən həftə isə Obama daha bir ciddi uğura imza atdı. Vaşinqton 36 illik gərgin münasibətlər, hətta bir zamanlar savaş vəziyyəti dönəmini arxada qoyaraq İranla nüvə məsələsində anlaşdı. Məsələ burasındadır ki, şah dövründə İran Vaşinqtonun Yaxın Şərqdə ən yaxın müttəfiqi olub. Ancaq 1979-cu il İslam inqilabından sonra İranda hakimiyyətə gələn islamçılar ABŞ-ı əsas düşmən elan edibər. İnqilabdan az sonra Tehranda ABŞ səfirliyinin ələ keçirilməsi və 65 nəfər səfirlik əməkdaşını girov saxlaması əməliyyatından sonra ABŞ ordusu İran ərazisinə ordu yeridib, ancaq səhrada başlayan amansız fırtına əməliyyatın dayandırılmasına səbəb olub. Bundan sonrakı müddətdə ABŞ və İran arasında diplomatik münasibətlər dayandırılıb, birbaşa qarşıdurma olmasa da. Hər iki ölkə Yaxın Şərqdə - Livanda, İraqda, Suriyada münaqişələr zamanı savaşan tərəfləri dəstəkləməklə, faktiki, savaş vəziyyətində olublar. İranın nüvə enerjisi əldə etmək çalışmalarını başlatması Vaşinqtonla Tehran arasında qarşıdurmanı yenidən gərginləşdirib. 2002-ci ildən sonra ABŞ BMT TŞ və Qərb ölkələrinin xətti ilə İranın nüvə fəaliyyətini dayandırmaq üçün sanksiyalar tətbiq edib. Corc Buş dönəmində isə qlobal antiterror müharibəsi zamanı ABŞ prezidenti İranı "şər üçbucağına" daxil edib, 2007-ci ildə isə Vaşinqtonda Tehrana hərbi müdaxilə gündəmə gəlib. Ancaq Obamanın hakimiyyəti dönəmində qarşıdurma səngiyib. İlk olaraq 2011-ci ildə Omanda İran və ABŞ heyətləri arasında gizli danışıqlar başlayıb. 2013-cü ilin yayında "islahatçı" Həsən Ruhaninin seçilməsindən sonra nüvə danışıqları intensivləşib və həmin ilin noyabrında aralıq sazişi imzalanıb, bu ilin aprelində isə razılaşma əldə olunub. İyulun 14-də tərəflər yekun sənəd üzərində razılığa gəliblər.

Obamanın hakimiyyəti dönəmində ən ciddi uğurlarından biri də bin Ladenin ələ keçirilməsidir. Bu hadisə həm daxili ictimai rəydə, həm də beynəlxalq səviyyədə ABŞ prezidentinin uğuru kimi qiymətləndirilir. 1980-ci illərdə SSRİ-nin Əfqanıstana müdaxiləsi zamanı könüllü cihadçı qrupların maliyyə dəstəkçilərindən olan Səudiyyə əsilli bin Laden Taliban Əfqanıstanda hakimiyyəti ələ keçirdikdən sonra "əl-Qaidə" terror təşkilatı vasitəsilə 1998-ci ildə Afrikada Keniya və Tanzaniyada terror hücumları həyata keçirməklə ABŞ-la düşmənçiliyini ortaya qoymuşdu. 2001-ci ilin 11 sentyabrında bin Ladenin maliyyələşdirdiyi terrorçuların Nyu Yorkda "əkiz qüvvələr"i partlatması və daha iki təyyarənin qaçırılması nəticəsində 3 mindən çox insan öləb. Bu hadisədən sonra BAŞ bütün dünyada "əl-Qaidə"yə qarşı savaş başladıb, Əfqanıstan və İraqı işğal edib. Ancaq bütün bu savaşlar və əməliyyatlar nəticəsində təşkilatın lideri bin Ladeni yaxalamaq mümkün olmayıb. Terror liderini yalnız 2011-ci ildə ələ keçirmək mümkün olub.



2011-ci il mayın 2-də yerli vaxtla gecə saat 1-də ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin xüsusi əməliyyatı və xüsusi təyinatlıların iştirakı ilə keçirilən əməliyyat nəticəsində bin Ladenin gizləndiyi Pakistanın Abbotabad şəhərciyi yaxınlığındakı villaya hücum təşkil olunub. Hücum nəticəsində bin Laden öldürülüb. Onun cəsədinin 24 saat sonra Oman yaxınlığında dənizə atıldığı bildirilir. Lakin bu məlumatın özü şübhəlidir.

Sadaladığımız 3 hadisə yalnız ABŞ dövlətinin maraqları baxımından deyil, həmçinin dünyada mühüm siyasi hadisə olaraq qiymətləndirilir. Barak Obama sələfləri ilə müqayisədə 3 böyük problemi həll etmiş dövlət başçısı kimi tarixə düşəcək.

❑ **KƏNAN**



# Türkiyədə terroru qadın paltarı geyinən kişi törədib

## Partlayışda istifadə olunan bomba Rusiya istehsalı olan TNT növlü partlayıcı maddə olub

**İyulun 20-də Türkiyənin Suruç bölgəsində 32 nəfərin ölümünə səbəb olan terroru törədən kamikadzenin kimliyi bəlli olub. Azvision.az bildirir ki, canlı bomba Adıyaman bələdiyyəsində qeydiyyatda olan 20 yaşlı Şeyx Əbdülrəhman Alagöz olub. İlkin ehtimala görə, o, qadın paltarı geyinərək HDP-nin 5 iyunda Diyarbəkirdə baş tutan mitinqinə qoşulub. Eyni zamanda hadisə yerində kriminalistlərin apardığı araşdırma nəticəsində məlum olub ki, terrorçu ölənlərin sayının çox olması üçün bədəninə kiçik dairəvi formada olan xüsusi metallar yerləşdirib. Həmin metal dairəciklərin üzərinə zəhərli maddələr vurulub.**

Partlayışda istifadə olunan bombanın hansı ölkəyə aid olduğu məlum olub. Avropa.info xəbər verir ki, istintaqın ilkin araşdırmasına görə, partlayışda istifadə olunan bomba Rusiya istehsalı olan TNT növlü partlayıcı maddə olub.

CHP-nin sədr müavini Vəli Ağbaba Suruç rayonundakı partlayışda Türkiyə kəşfiyyatının rəhbəri Hakan Fidanı təqsirkar hesab edərək onun istefa verməsinin lazım olduğunu bildirib. Vəli Ağbaba partlayışın hökumətin xarici siyasətinin səhv yönləndirilməsi nəticəsində baş verdiyini bildirib. V.Ağbaba deyib: "Təəssüf ki, son dövrlərdə izlənilən siyasi addımlar səbəbi ilə belə bir hadisə yaşandı. Bu hadisə AKP-nin və Türkiyə kəşfiyyatının (MİT) izləmiş olduğu Suriya siyasətinin nəticəsi və məhsuludur. 2012-ci ildə Reyhanlıda 52 vətəndaşımız həlak oldu, bu gün də 31 gəncimiz öldürüldü. Təəssüf ki, MİT bunları görə bilmədi. Elə buna görə də kəşfiyyat rəhbəri və daxili işlər naziri istefa verməlidir".

**Türkiyənin baş naziri Əhməd Davudoğlu Ankarada keçirdiyi mətbuat konfransında terror aktını törədən İŞİD-ə qarşı bütün lazımi tədbirlərin görülməsinin davam edəcəyini deyib:** "Terrorizm hadisəsi ilə üz-üzəyik. Bizdə günahkarların tapılması və cəzalandırılması üçün iradə var". BBC-nin Yaxın Şərq üzrə müxbiri Jim Muirin sözlərinə görə, Türkiyə İŞİD qruplaşmasının fəaliyyətinə göz yummaqda günahlandırılırdı. Amma son zamanlar yaraqlılara qarşı etdiyi güclü basqılar bu partlayışın baş verməsinə səbəb ola bilər.

Hadisədən sonra İstanbulda və Ankarada etiraz aksiyaları baş tutub. Etirazçılar prezident Rəcəb Tayyib Ərdoğanı ittiham edən şüarlar səsləndiriblər. Polis etirazçılara qarşı su şırnaqlarından, gözyaşardıcı qazdan və rezin güllələrdən istifadə edib.

Ağ Evin mətbuat katibi hücumu pisləyərək "Türkiyə dövləti və türk xalqı ilə həmrəyliyini" ifadə edib.

Birləşmiş Millətlər Təşkilatı Türkiyədə baş verən terror hadisəsinə münasibət bildirib.

BMT-nin baş katibi Pan Ki Munun bəyanatında deyilir ki, mülki insanların hədəf alındığı terror hadisəsinin heç bir əsası ola bilməz.

Şanlıurfa vilayətinin Suruc rayonunda törədilən terror aktı zamanı ölənlərin qohumlarına, türk xalqına və Türkiyə hökumətinə başsağlığı verən BMT rəsmisi hücumu törədənlərin ən yaxın vaxtda yaxalanacağına və ədalət qarşısına çıxarılacağına ümid etdiyini deyib.

**Azərbaycan XİN Türkiyədə törədilmiş terror aktını pisləyən məlumat yayıb.**

**APA-nın məlumatına görə, məlumatda bildirilir:** "Biz Türkiyənin Şanlıurfa vilayətinin Suruç rayonunda törədilmiş terror aktını qəti şəkildə pisləyirik. Bu terror aktının qurbanı olmuş şəxslərin ailələrinə və qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verir və yaralananların tezliklə şəfa tapmasını diləyirik.

Terrorizmdən əziyyət çəkən dövlət kimi, terrorizmin bütün forma və təzahürlərini kəskin şəkildə qınayır və qardaş Türkiyə ilə həmrəyliyimizi bir daha vurğulayırıq".

❑ **Aygün MURADXANLI**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 157 (6185) 22 iyul 2015



# ABŞ və Rusiyanın Qarabağ rəqabəti nə vəd edir?

## İran məsələsində ortaq olan Kreml və Vaşinqtonun bu məsələdə sinxronluq göstərməməsinin əsas səbəbi; XİN başçılarının qəfil Moskva görüşünün yeni detalları var; Putin doğrudanmı növbəti "Qarabağ sammiti" hazırlayır?

**Ötən həftə Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov Moskvaya qəfil səfər etdi. Artıq bəllidir ki, belə bir səfər qabaqcadan planlaşdırılmayıb. Hər halda, bu səfər haqda ictimaiyyətə heç bir bilgi verilməmişdi. Maraqlıdır ki, təxminən ayarım öncəki səfərdən fərqli olaraq bu dəfə Məmmədyarovun rusiyalı həmkarı Sergey Lavrovla görüşündən sonra sonuncu bəzi nikbin açıqlamalar səsləndirdi. Rusiya XİN başçısı münaqişənin nizamlanması üçün danışıqlar prosesini intensivləşdirməyin vaxtı çatdığını və Kremlin tərəflərin nəticə əldə etməyə hədəfləndiyini nəzərə alaraq bu prosesə kömək etməyə hazır olduğunu söylədi.**



Daha bir mühüm detal Lavrovun Məmmədyarovdan sonra Ermənistan xarici işlər naziri Edvard Nalbəndyanla da telefonda Qarabağ mövzusunu müzakirə eləməsi oldu. Bu da bəzi siyasi müşahidəçilərdə belə təəssürat yaratdı ki, Rusiya yeni bir Qarabağ sammiti hazırlayır.

Ancaq 21 illik danışıqların təcrübəsi göstərir ki, bu cür "birtərəfli" sammitlər, - istər Rusiya tərəfindən təşkil olunsun, istərsə də ABŞ - effektli olmur. İranın nüvə dosyesi ilə bağlı əldə edilən Vyana anlaşması da təsdiqlədi ki, yalnız beynəlxalq güclər çəkici eyni zindana vuranda bu qəbildən konfliktli məsələləri dinc yolla tarixin arxivinə göndərmək olar.

Təsadüfi deyil ki, Azərbaycan xarici işlər naziri İranın nüvə proqramına dair uzun illərdir davam edən danışıqların, nəhayət, müsbət nəticə verdiyini xatırladaraq bunun Qarabağ münaqişəsinin də həllinə ümid yaratdığını qeyd edib.

***

Məlumdur ki, son vaxtlar prezidentlərin görüşünə ABŞ səviyyəsində təşəbbüslər göstərilir. Növbəti belə bir təmasın Nyu-Yorkda baş tutacağı gözlənilir. Ancaq təkrar edirik, növbəti belə "birtərəfli" sammit də səmərəsiz yekunlaşa bilər. Hər halda, Rusiya təşəbbüskarlığın Ukraynaya görə gərgin münasibətlərdə olduğu Amerikaya keçməsinə isti baxmır və onu qabaqlamağa çalışır. Olsun. Təki Qarabağ nizamlanması uğrunda "yarış" konfliktin həllinə yardımçı oldun, böyük müharibə riskini aradan qaldırsın, bölgədə daimi və ədalətli sülhün bərqərar olmasına sanballı töhfə versin, nəinki Qarabağa görə regiona "nifaq alması"na çevrilsin.

Əfsus ki, pozitivə inam azdır. Çünki Moskva və Vaşinqton İran məsələsindəki kimi Qarabağ məsələsində də çəkici eyni zindana vurmaq iradəsindən çox uzaq görünür. Siyasi iradə göstərsələr, əlbəttə ki, kardinal irəliləyiş mümkündür və İranla bağlı diplomatik uğur da nümayiş etdirdi ki, Ukrayna böhranı kimi heç bir başqa problem onlara mane ola bilməz.

***

ATƏT-in Minsk Qrupunun həmsədrləri isə iki gündür regiondadırlar. Səfərdə əsas məqsədin sentyabrda Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü hazırlamaq olduğu bildirilir.

**Lakin politoloq Qabil Hüseynli mediaya müsahibəsində deyib ki, Moskvada xarici işlər nazirlərinin görüşü daha ciddi detallar üzərində qurulub. O əmindir ki, Dağlıq Qarabağ məsələsi ətrafında bir rəqabət mühiti formalaşıb:** "Belə görünür ki, Qərblə Rusiya Dağlıq Qarabağ məsələsi üzərində bir növ rəqabətə girişib. Hər halda, Rusiyanın Dağlıq Qarabağ məsələsi üzərində təxminən bir müddət bundan öncəki açıq bəyanatları, xüsusən də ardınca Elmar Məmmədyarovun Moskvada çox yaxın zamanlarda məsələnin həll olunmasının vacibliyi ilə bağlı fikir səsləndirməsi sözün əsl mənasında prosesin yerindən tərpəndiyini deməyə əsas verir. Amerikalı həmsədrin Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayonun qaytarılmasına dair bir neçə gün öncəki bəyanatı və bunun Vaşinqtonun mövqeyi olmasını bildirməsi, bununla paralel, Almaniya Bundestaqının Azərbaycanın ərazi bütövlüyünə dair qətnamə çıxarması ona dəlalət edir ki, Qərb Bakının Rusiyaya tərəf meyllənməsi və Qarabağ probleminin həllində Moskvanın təşəbbüsü ələ almasından narahatdır. Hazırda bir rəqabət mühiti formalaşıb. Ancaq bunun həqiqətən sağlam rəqabət olmasını çox arzulardıq".

**Politoloqun sözlərinə görə, sentyabra qədər Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlarda müəyyən dəyişikliklərin şahidi ola bilərik:** "Bu gün Ermənistana yeganə təsir edəcək ölkə Rusiyadır. Ona görə də Azərbaycan sövdələşməni Rusiya ilə aparır. Bununla bağlı həqiqətən də ciddi irəliləyişlər var. Düzdür, ATƏT-in Minsk Qrupunun həmsədrləri sentyabrda Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü hazırlamaq istəyirlər, ancaq Moskvada xarici işlər nazirlərinin görüşü daha ciddi detallar üzərində qurulub. Rusiyanın Azərbaycanla bağlı maraqlı strateji planları çoxdur. Bura Azərbaycanı Şanxay Əməkdaşlıq Təşkilatına cəlb etməklə yanaşı, Avrasiya Birliyi və Gömrük İttifaqına dəvət etməyə qədər məsələlər daxildir. Çünki Rusiya Azərbaycan kimi geosiyasi cəhətdən getdikcə inkişaf edən bir ölkə ilə belə birliklərdə Ukraynın yerini doldurmağa çalışır. Belə olan halda da strateji maraqlar fonunda müəyyən sövdələşmələr əldə edilə bilər. Azərbaycan belə addımların öncə onun maraqlarına uyğun olaraq atılmasının üzərində qətiyyətlə durur. Güman edirəm ki, sentyabrın sonuna qədər Dağlıq Qarabağ prosesində korrektiv dəyişikliklərin şahidi olacağıq".

***

Bu arada Lavrov-Məmmədyarov görüşünün yeni detalları bəlli olub. ("Turan"). Diplomatik mənbələrin məlumatına görə, tərəflər Qarabağ məsələsindən savayı digər istiqamətlər üzrə - "regional sahədə, BMT, ATƏT-də, Xəzərdə vədigər formatlarda" ikitərəfli münasibətləri dərinləşdirmək niyyətlərini ifadə ediblər. Lavrov qeyd edib ki, əlaqələrin intensivləşdirilməsi "yay tətilindən sonra" başlayacaq - sentyabrda Yekaterinburqda ticari-iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın iclası, regionlararası forum keçiriləcək. **"Sentyabrda Rusiya Sverdlovsk şəhərində böyük silah və hərbi texnika sərgisi təşkil edəcək. Azərbaycan nümayəndələrini də gözləyirik"** - Lavrov deyib.

# Bakı Sərkisyanın cavabını verdi

**Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Ermənistan prezidenti Serj Sərkisyanın Avropa İttifaqı Şurasının sədri Donald Tuskla keçirdiyi mətbuat konfransında səsləndirdiyi fikirlərə münasibət bildirib.**

H.Hacıyev deyib ki, Azərbaycan və Ermənistanla münasibətlərdə diferensial yanaşmanın tətbiq olunmasına çağıran Ermənistan prezidenti əslində mövcud həqiqəti etiraf edir: "Əlbəttə, işğalçı və təcavüzkar dövlət olan Ermənistanla işğala məruz qalan dövlət olan Azərbaycan arasında fərq qoyulmalıdır. BMT nizamnaməsinə uyğun olaraq, Ermənistanın Azərbaycana qarşı təcavüzünə ikili standartlardan kənar beynəlxalq hüquqi qiymət verilməli və Ermənistanın "cəzasızlıq" sindromuna son qoyulmalıdır. Avropa İnsan Hüquqları Məhkəməsinin "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə çıxardığı qərar işğalçı dövlət kimi Ermənistanın məhz hüquqi məsuliyyətini müəyyən edən fundamental sənəddir".

**Onun sözlərinə görə, 100 ilə yaxın dövr ərzində Avropanın edə bilmədiyi birinci Avropa Oyunlarını uğurla təşkil edən Azərbaycan Olimpiya idealları və "Olimpiya barışığı" fəlsəfəsinin bütün Avropada, o cümlədən Cənubi Qafqazda təşviqinə əsaslı töhfə vermiş oldu:** "Avropa




Oyunları ərəfəsi və dövründə qoşunların təmas xətti və Ermənistan-Azərbaycan sərhədi boyunca atəşkəsi pozmaqda davam edən Ermənistan Olimpiya idealları və sivil dəyərlərdən tamamilə kənar olduğunu bir daha sübut etdi. Sülh və barışıq rəmzi olan Ramazan bayramında belə, Ermənistan atəşkəsi pozmaqdan və hətta mülki şəxsləri, o cümlədən uşaqları hədəfə almaqdan çəkinmədi".

Azərbaycan Respublìkasının Prezìdentì yanında Kütləvì İnformasìya Vasìtələrìnìn İnkìşafına Dövlət Dəstəyì Fondunun malìyyəsì əsasında. Səhìfənì hazırladı: Sìyasət şöbəsì

YENİ MÜSAVAT
N 157 (6185) 22 iyul 2015

**Rusiyalı avantürist və iş adamı German Sterliqov Moskvadan Dağlıq Qarabağdakı ailəsinin yanına qayıdıb. Sterliqov Moskvada olduğu müddətdə hüquq-mühafizə orqanları ona heç bir maraq göstərməyiblər, bu səbəbdən milyarder Şuşadakı ailəsinin yanına geri dönüb. Sterliqov iddia edib ki, bunu Azərbaycan və Rusiya KİV-lərindəki "böhtanlara" cavab vermək üçün edib.**

# Şuşaya qaçan milyarder siyasi oyunlara qoşulub

## Arzu Nağıyev: "Rusiya tərəfi bütün beynəlxalq normalara riayət etməli və Sterliqov məsələsinə son qoymalıdır"
## Hikmət Hacıyev: "Məsələ diqqət mərkəzindədir"

Xatırladaq ki, rus milyarder işğal altındakı Qarabağa icazəsiz gəldiyindən Azərbaycan Xarici İşlər Nazirliyi onu "arzuolunmaz şəxs" elan edib və adını "qara siyahı"ya salıb. Rus millətçiləri ilə işbirliyində olduğu iddia edilən bu şəxs nədənsə Rusiyada heç hansı təzyiqlə üzləşmədi və sərbəst şəkildə yenə işğal altındakı Azərbaycan ərazilərinə döndü. Bu da ondan xəbər verir ki, o, əslində hansısa layihəni həyata keçirir və burada Kremlin də konkret maraqları var.

**XİN-in mətbuat katibi Hikmət Hacıyev "Yeni Müsavat"a açıqlamasında dedi ki, rəsmi Bakı Sterliqovun Qarabağa ilk səfəri zamanı mövqeyini açıqlayıb:** "Hiss olunur ki, o, publikaya və reklama işləyən adamdır. Bu mənada əlavə reaksiyamız onun reklamına xidmət edir. Ona görə də hələ gözləmə mövqeyi tutmuşuq. Görək Rusiya hüquq-mühafizə orqanlarının işi necə qurtaracaq. Çünki orda da bununla bağlı bir sıra fikirlər var, cinayət işində, hər hansı epizodlarda adı hallanır. Gözləyirik ki, məsələ necə bitir". Sterliqovun Azərbaycanı hədələməsinə gəldikdə, XİN sözçüsü dedi ki, bu adam rəsmi şəxs olmadığı üçün onun dediklərinə hansısa cavab verilməsi məqsədəuyğun sayılmır.

**Qarabağa Rusiyadan köç edənlərin sayı barədə konkret statistikanın olmadığını vurğulayan Hacıyev qeyd etdi ki, hazırda rəsmi Bakının "qara siyahı"sında 472 nəfərin adı var:** "Bunların əksəriyyəti gəlib-gedən xarakteri daşıyır. Bəziləri erməni lobbisi, erməni diasporunun təsiri altında olan şəxslərdir. Amma daimi əsasda orada qalma halı ancaq Suriyadan olan erməni əsilli şəxslərdə özünü göstərir. Bir sıra başqa regionlardan erməni əsilli şəxslərin məskunlaşması halı da var. Biz say əmsalını dövlətlər üzrə deyil, fərdi şəxslər üzrə aparırıq. Dövlətlərin əksəriyyəti tərəfindən öz vətəndaşlarına Azərbaycanın işğal olunmuş ərazilərinə getməmək barədə tövsiyə verilib və bu, XİN-lərin saytında da öz əksini tapıb. Fərdi şəxslər tərəfindən bu addımlar atılırsa, artıq fərdi məsuliyyətdən söhbət gedir. Biz də onlara daha çox fərdi əsaslarla yanaşmağa çalışırıq".


German Sterliqov

**Sterliqov Şuşada qanunsuz olaraq yaşamaqda davam etsə, rəsmi Bakı sadəcə susacaqmı? H.Hacıyev:** "Xeyr, hazırda məsələ araşdırılır. Araşdırmanın nəticəsindən asılı olaraq növbəti tədbirlər görüləcək. Sadəcə olaraq, hadisələri ertələyib hər hansı şərh verməkistəmirik. Amma məsələ diqqət mərkəzindədir".

**XİN təmsilçisi onu da əlavə elədi ki, E.Məmmədyarovun Moskva səfərində bu məsələ müzakirə mövzusu olmayıb. Eyni zamanda H.Hacıyev Bakının Rusiya ilə bağlı məsələlərə ehtiyatlı yanaşdığı barədə iddiaları qəbul etmədi:** "Azərbaycanın mövqeyi prinsipial xarakter daşıyır və bu mövqe ölkəmizin qanunlarına əsaslanır. Vətəndaşlığından asılı olmayaraq, Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfər edən hər bir şəxs "arzuolunmaz şəxslər" siyahısına daxil edilir. Hətta burada bir hal da var ki, Slovakiya vətəndaşı Mikloşka barəsində XİN-in qaldırdığı məsələ ilə bağlı Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən cinayət işi də açılıb".

**Politoloq Arzu Nağıyev deyir ki, əvvəlcədən də Sterliqovun işğal olunmuş Azərbaycan ərazilərinə biznes qurmaq üçün gəlməsi inandırıcı deyildi:** "Yəqin ki, milyardlarla sərvət sahibi olmuş bu şəxs beynəlxalq normalardan və hüquqdan xəbərdardır. Nəticə budur ki, bu şəxs işğal olunmuş ərazilərə biznes qurmaq üçün gələ bilməz və bu biznesin perspektivi yoxdur. Dağlıq Qarabağ münaqişəsi hərbi və ya sülh yolu ilə həll edilərsə, torpaqlar azad olunarsa, Sterliqovun quracağı biznesin aqibəti məlumdur ki, yaxşı olmayacaq. Yəni məntiqlə bu şəxs hansısa maliyyə və digər maxinasiyalardan, dələduzluqdan qaçaraq nəzarətsiz ərazidə kölgələnmək istəyir".

**A.Nağıyev Sterliqova qarşı Rusiyada cinayət işinin başlanmasını da vurğuladı:** "Digər tərəfdən, ola bilsin ki, o, qondarma quruma hansısa investisiya qoymaq adı ilə çirkli pullarını yuyur. Yəni müharibə şəraitində və ya hər hansı silahlı münaqişə baş verərsə, həmin çirkli pullar silinəcək. Sterliqovun qayıdışı da bir siyasi gediş kimi qiymətləndirilə və digər biznesmenlərə "örnək" kimi xarakterizə oluna bilər. Onun öz sözlərinə görə, guya xristian həmrəyliyi nümayiş etdirir. Nəticə budur ki, onu göndərən şəxslər və ya təşkilatlar sanki bir yoxlama-kəşfiyyat tədbirləri keçirir. Düşünürəm ki, Rusiya tərəfi bütün beynəlxalq normalara riayət etməli və Sterliqov məsələsinə son qoymalıdır. Çıxışlarından da hiss edilir ki, Sterliqovun açıqlamaları heç bir məntiqə və hüquqi normalara söykənməyən boş danışıq və sayıqlamadan başqa bir şey deyil".

❑ **E.PAŞASOY**

# "Anlaşma çox güman ki, olacaq..."

## "Türk axını" hara gedir?- kəskin bəyanatların pərdəarxası…

**"Türk axını" layihəsi ilə bağlı müzakirələr kəskinləşir. Türkiyə Rusiyanın təklifi ilə razılaşmadığını deməklə münasibətlərə daha sərt şəkildə gərginlik gətirib. Türkiyənin energetika və təbii sərvətlər naziri Taner Yıldız "Qazprom" şirkəti ilə Rusiya qazını Ukraynadan yan keçməklə Avropaya çatdırmalı olan "Türk axını" layihəsinə dair danışıqları şərh edərkən mühüm açıqlama verib. "Moskva bizi yalnız tranzit ölkə kimi görür. Bunun bizim üçün heç bir mənası yoxdur. Biz birgə ixrac sisteminin yaradılmasında maraqlıyıq",- deyə o vurğulayıb.**

T.Yıldız bu məsələyə dair razılaşmanın əldə olunduğunu bildirib. Amma əlavə edib ki, Rusiya bu məsələdə geriyə addım atıb. Türkiyəli nazirin sözlərinə görə, "Türk axını" həm Moskvanın, həm də Ankaranın maraqlarına cavab verməlidir: "Biz maraqlarımıza təhdid yaradan güzəştlərə heç vaxt razı olmayacağıq". T.Yıldız əlavə edib ki, bu problem yalnız qaza görə güzəştlərin verilməsi ilə həll oluna bilməz.

Nazirin sözlərinə görə, ölkə "Türk axını" layihəsinin həyata keçirilməsi məsələsində "Qazprom"a güzəşt etməyəcək.

Bir müddət əvvəl bildirilib ki, "Türk axını" dəniz qaz kəmərinin Rusiyadan Türkiyənin qərbinə ilk qolu 2016-cı ilin sonlarında işə salınmalıdır. O, Türkiyənin qərbinin Ukrayna tranziti yerinə təchiz edilməsinə yönələcək. Növbəti üç qol mərkəzi və cənubi Avropa ölkələrinə qaz ixracının Ukrayna tranziti ilə əvəz olunması üçün nəzərdə tutulub. Qaz kəmərinin gücünün ildə 60 mlrd. kubmetrə qədər təşkil edəcəyi nəzərdə tutulurdu. "Türk axını"nın tikintisi barədə qərar 2014-cü ilin dekabrında bağlanmış "Cənub axını" layihəsi üzrə işlər dayanandan sonra qəbul olunub. Bu kəmərin illik ötürmə gücü 60 milyard kubmetr təşkil edəcək.


Natiq Cəfərli

**Ekspert Natiq Cəfərli musavat.com-a bildirib ki, əslində Türkiyə ilə Rusiya arasında qaz məsələsində ciddi, hətta kifayət qədər kəskin dialoqun mövcudluğu bir ticarət anlaşmasında üstün mövqelərin qazanılmasına xidmət edir:** "Türkiyə anlayır ki, Rusiya Ukrayna üzərindən qazının böyük bir hissəsinin Avropaya nəqlində maraqlı deyil və bu marşrutu dəyişmək istəyir. Bununla həm Ukrayna qarşıdurmasında bu ölkəyə iqtisadi zərbə vurmağı düşünür. Həm də gələcəkdə Ukraynadan asılılığını azaltmağa çalışır. Bunu Türkiyə çox gözəl başa düşür və Rusiyanın bu istəyini maksimal dərəcədə özünə sərf edən şərtlər daxilində həyata keçirməyə üstünlük verir. Yəni Türkiyənin istədiyi tək tranzit ölkə olmaq deyil. Əlbəttə ki, Taner Yıldız tranzitdən heç bir xeyir götürməmək deməklə tam həqiqəti söyləməyib. Tranzit ölkə kimi Türkiyə kifayət qədər xeyir götürəcək. Amma söhbət ondan gedir ki, Türkiyə tək tranzit ölkə olmaq istəmir. Rusiyadan aldığı qazın bir hissəsini özü satışa çıxarmaq imkanlarını qazanmaq istəyir. Burada mənə elə gəlir ki, Türkiyə ilə Rusiya arasında çəkişmənin əsas məqsədi bundan ibarətdir".

**Ekspertin sözlərinə görə, Rusiya isə Türkiyəni ancaq tranzit ölkə kimi düşünür və öz qazını Türkiyə-Avropa sərhədində, sonra qaz mərkəzində türk şirkəti tərəfindən Avropa ölkəsinə satılmasını və müqavilələrin bağlanmasını istəyir:** "Burada hər iki tərəfin öz ciddi maraqları var. Danışıqların da belə kəskin olması bu maraqların təminatına xidmət edir. Düşünürəm ki, hər iki ölkəyə sərf edən kifayət qədər böyük məqamlar var orada. Sonunda anlaşacaqlar. Rusiya da Ukraynadan canını qurtarmaq istəyirsə, obrazlı desək, Türkiyəyə möhtacdır və Türkiyə üzərindən bu işi görməlidir. Ona görə də hər iki tərəfin kəskinliyi kifayət qədər güzəşt qoparmağa hesablanmış addımlardır. Ona görə də "Türk axını"nın gələcəkdə realizə olunması şansı kifayət qədər yüksəkdir. Dediyim kimi, hər iki ölkəyə ciddi şəkildə sərf edən məsələlər var. Türkiyə bu səbəbdən danışıqlarda daha kəskin mövqe qoyub. Düşünürəm ki, bu kəskin mövqenin qoyulmasının əsas məqsədi çox güzəşt qoparmağa çalışmaqla bağlıdır. Anlaşma da çox güman ki, olacaq".

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 157 (6185) 22 iyul 2015

# “Gəncəbank” rəhbərindən şikayətlər araşdırılmamış qalıb

## Vəkil və müvəkkili prezidentə, baş prokurora müraciət etdi

**“Gəncəbank” rəhbəri Pərvanə Novruzovanın əməllərindən zərərçəkən Natalya Kərimova və onun vəkili Ceyhun Yusifov prezidentə və baş prokurora müraciət ediblər. N.Kərimova yazır ki, P.Novruzova ona olmazın işgəncələr verərək mülklərini zorla əlindən alıb. Bununla bağlı dövlət orqanlarına dəfələrlə məktub yazsa da, məsələ faktiki olaraq araşdırılmamış qalıb.**




“Etdiyim müraciətə Gəncə Şəhər Prokurorluğu 28 aprel 2015-ci ildə 52547 nömrəli məktubla cavab verib. Məktubun ikinci abzasında qeyd edilir ki, mülklərim əlimdən alınarkən etdiyim şikayətdən sonra materiallar toplanıb. Material əsasında 9 oktyabr 2001-ci ildə Pərvanə Cəmil qızı Novruzova barəsində Cinayət Məcəlləsinin 158.2-ci (hüquqi şəxslərin binalarının (otaqlarının) toxunulmazlığını pozma) maddəsinə əsasən cinayət işi başlanıb və istintaq aparılıb. Məktubda qeyd olunur ki, guya rəhbəri olduğum ”Gözəl Esmira" firması ilə “Gəncəbank” arasında o vaxtkı pulla 270 milyon manat kredit müqaviləsi bağlanmış və girov kimi “Gözəl Esmira” firmasının mülkiyyətində olan Gəncə şəhəri, Xətai küçəsində yerləşən “Nataşa” gözəllik salonu girov qoyulub. Halbuki həmin gözəllik salonu firmanın yox, mənim şəxsi mülkümdür. Gəncə Prokurorluğunda istintaq edilən həmin cinayət işi Pərvanə Novruzovanın diktəsi ilə və təqdim etdiyi saxta sənədlər əsasında birtərəfli qaydada araşdırılıb. Mənə qarşı haqsızlıqlara son qoyulmasını, işin hörmətli prezident və baş prokurorun nəzarətinə götürülərək araşdırılmasını xahiş edirəm. İnanıram ki, prezidentin nəzarəti, baş prokurorun müvafiq göstərişi məmurların mənə, qızıma qarşı olan zorakılıqların, əmlaklarımın zəbt olunmasını ört-basdır etmək istəyinin qarşısını alacaq".

**N.Kərimovanın vəkili Ceyhun Yusifov “Yeni Müsavat”a bildirib ki, müvəkkilinin çoxsaylı müraciətləri baxılmamış qalıb. İşin araşdırılması isə faktiki olaraq dayanıb:** “Cənab prezidentə, baş prokurora müraciətimizin işin obyektiv həll olunmasına səbəb olacağına inanıram. Təəssüf edirəm ki, prezidentin çağırışlarına rəğmən məmurlar vətəndaşların hüquqlarının bərpasına tələsmirlər. İlham Əliyevin məmurlara ünvanladığı tənqidi müraciətlərindən sonra da vətəndaşların hüquqlarının bərpası yönündə addımlar atılmır. 2002-ci ildə ”Gəncəbank" ASC Natalya Kərimovaya qarşı iddia qaldırıb. Lakin həmin vaxt N.Kərimova P.Novruzova tərəfindən ölkədən çıxarıldığına görə o, həmin iddiaya baxılarkən məhkəmədə iştirak edə bilməyib. Məhkəmə N.Kərimovaya məxsus əmlakların - “Nataşa” salonunun, Gəncə şəhərində 2 mənzilin bankın sərəncamına keçməsi haqda qiyabi qərar çıxarıb. 2015-ci il mayın 19-da çıxarılan qərarla “Gəncəbank” ASC-nin Natalya Kərimovaya qarşı iddiasının təmin edilməsi haqda 2002-ci ildə çıxarılan qiyabi qərar ləğv olunub. Həmin qiyabi qərarda bizə məlum olmayan və bizdən xəbərsiz tərtib olunan müqaviləyə istinad olunurdu. Müqavilədə yazıblar ki, guya öhdəliyin təminatı kimi “Nataşa” salonu girov qoyulub və guya Natalya Kərimova ödəmə həyata keçirmədiyindən girov “öhdəliyin” təminatına yönəldilib. Bu, faktiki olaraq Natalya Kərimovaya məxsus salonun məhkəmə aktı ilə qanunsuz olaraq ələ keçirilməsi idi. Çıxarılan qətnamə ilə Natalya Kərimovaya məxsus olan və “Gəncəbank” İdarə Heyətinin sədri Pərvanə Novruzovaya keçməsinə dair hüquqi əsas yaratmış Kəpəz Məhkəməsinin 2002-ci il tarixli qiyabi qətnaməsi şikayətimiz əsasında ləğv olunub. Lakin bu günə qədər Natalya Kərimovanın əmlakları özünə qaytarılmayıb".

❑ **E.MƏMMƏDƏLİYEV**



## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**





# Lamiyə Quliyeva keçmiş nişanlısının əfv edilməməsindən yazdı

**Saxlandığı 4 saylı cəzaçəkmə müəssisəsində ana olandan sonra azadlığa buraxılan Lamiyə Quliyeva keçmiş nişanlısı Vüqar Əliyevin əfv edilməməsinin səbəbi haqda status paylaşıb. Keçmiş məhkum facebook divarında yazıb: “Siz inanırsız ki, mənim keçmiş nişanlımı ölkə başçısı əfv etmək istəyirdi, ancaq ona Aslan Aslanovun yüksək vəzifədə işləyən yaxınları imkan vermədilər, bir insanı günahı olmadan diri-diri basdırıblar, budur ədalətli hökumətimiz?”**

L.Quliyeva həbsdən çıxandan sonra ona və keçmiş nişanlısına qarşı ittihamların da saxtalaşdırıldığını bəyan edib. Deyib ki, Şəmkirin keçmiş icra başçısı, sonradan kənd təsərrüfatı nazirinin müavini olmuş Aslan Aslanovun oğlu Ruslan Aslanovu onun namusuna toxunduğuna görə öldürüblər. Sonradan isə ittihamda saxtakarlığa yol verilərək qətlin guya torpaq mübahisəsinə görə baş verməsi yazılıb. L.Quliyevaya həbsdə olduğu müddətdə bir neçə saxta ittihamla üzləşib, onun həbs müddəti uzadılıb. Həbsdə ikən ana olandan sonra onun işinə yenidən baxılıb və azad olunub. Bundan sonra onun keçmiş nişanlısı V.Əliyevin prezidentin əfv sərəncamı ilə azadlığa çıxacağı gözlənilirdi. Hətta son əfv fərmanında onun adının olması haqda da məlumatlar vardı. Amma verilən əfv fərmanında V.Əliyevin adı olmadı. Bu baxımdan L.Quliyevanın yazdığı statusda toxunduğu məqamların ciddi əsası olduğu görünür.

Xatırladaq ki, L.Quliyeva və onun nişanlısı olmuş V.Əliyev 2003-cü ilin mayında, o dövrdə Şəmkirin icra başçısı olan Aslan Aslanovun oğlu Ruslanı öldürməkdə suçlu biliniblər. L.Quliyeva 10 il, V.Əliyev isə ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum olunublar. L.Quliyevanın həbs müddəti 2012-ci ildə 5 il 6 ay müddətinə uzadılıb. Əgər bu qərar olmasaydı, 15 yaşında həbs olunan məhkum qadın 2013-cü ilin mayında azad olunmalı idi. Belə iddialar var ki, L.Quliyevanın həbs müddəti A.Aslanovun sifarişi ilə uzadılıb.

❑ **E.MƏMMƏDƏLİYEV**




# «Azercell»dən əsl 4G internet 55%-dək endirimlə!

## Şirkət bütün abunəçiləri üçün yeni internet paketlərini istifadəyə verdi

**Hər zaman abunəçilərinin maraqlarını nəzərə alan Azərbaycanın lider mobil operatoru «Azercell» 16 iyul tarixindən etibarən internet paketlərində əsaslı endirim tətbiq edir. İndi «Azercell» öz abunəçilərinə keyfiyyətli mobil internetlə yanaşı, həm də sərfəli paketlər təklif edir. Şirkət yeni daha sərfəli mobil internet paketləri istifadəyə verməklə, bütün abunəçilərini sevindirir. Yeni tarif paketlərinə görə, SimSim abunəçiləri 50 MB internet paketini cəmi 1 AZN-ə, 1 GB internet paketini isə 5 AZN-ə əldə edə bilər.**

| Paketin adı | Paketin Həcmi | Açar sözü | Qiymət (ƏDV daxil) |
|---|---|---|---|
| 50 MB | 50MB | 50 | 1 AZN |
| 500 MB | 500MB | 500 | 3 AZN |
| 1 GB | 1 GB | 1000 | 5 AZN |
| 5 GB | 5GB | 5000 | 10 AZN |
| 10 GB | 10GB | 10000 | 15 AZN |
| Limitsiz | 50GB | Limitsiz | 30 AZN |

**İnternet paketini aktiv etmək üçün abunəçi müvafiq açar sözünü 2525-ə göndərməli və ya telefonun ekranında *100* İnternet Paketin açar sözü# YES yığmalıdır. Məlumat üçün bildirək ki, İnternet paketlərindən istifadə müddəti 30 gündür. 30 gün istifadə müddəti bitdikdə internet paket avtomatik yenilənir.**

**Azercell-in bütün Fakturalı Xətt və Tələbə1-liyi tarifinin abunəçilərinə isə İnternet paketləri əlavə 20% endirimlə təklif olunur.**

**Onu da qeyd edək ki, irihəcmli paketlər (1 GB, 5 GB, 10 GB, Limitsiz) 30 gündən əvvəl bitdikdə İnternetdən istifadə 30 günlük istifadə müddətinin sonunadək pulsuz olur və paketdən asılı olaraq əlavə trafikə fərqli sürət tətbiq olunur: 1 GB və 5 GB-lıq paketlərdə GPRS sürəti (64 Kbit/s-dək), 10 GB və Limitsiz paketlərdə isə EDGE sürəti (128 Kbit/s-dək).**

**«Azercell» şirkəti bundan sonra da öz abunəçilərinin mobil internetdən sərfəli və rahat şəkildə istifadəsi üçün yeni məhsul və kampaniyalar yaratmaqda davam edəcək.**

**Daha ətraflı məlumat üçün news@mcs.az ailto:news@mcs.az ünvanına müraciət edə bilərsiniz.**





## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 157 (6185) 22 iyul 2015

**Ölkədə sahibsiz, xəstəlik daşıyıcıları olan itlərə qarşı müəyyən mübarizə tədbirləri həyata keçirilsə də, bu problem həllini tapmır. Bakının mərkəzində, ətraf kənd və qəsəbələrdə insanlar vaxtaşırı onların hücumuna məruz qalır. Əsasən də gecə saatlarında küçələrdə ulaşan itlər əhali arasında böyük narahatlıq doğurur. Bu heyvanlar quduzluq xəstəliyinin yayılmasına səbəb olur, insanların fərdi təsərrüfatına zərər vururlar.**

# Bakının sahibsiz itlər problemi...

## Yolçu Xanvəli: "Sahibsiz heyvanlar yalnız xəstə olduğu zaman öldürülməlidir"

**Sahibsiz itləri öldürülməlidirmi?**

Sahibsiz itləri bəzən elə əhalinin gözü önündəcə güllələyir, onlara qarşı amansız davranırlar. Günün günorta çağındaca itlərin güllələnməsi insanlarda xof yaradır, azyaşlı uşaqlarda qorxuya səbəb olur. Bugünlərdə sosial şəbəkələrdə, mətbuatda itlərin güllə ilə öldürülərək yandırılması barədə video da yayılmışdı. Video cəmiyyətdə böyük ajiotaj yaratdı. Heyvanlarla bu cür davranışların nəticəsində itlər daha da aqressivləşib insanlara hücum edirlər.

Avropa ölkələrinin təcrübəsində itlərlə mübarizə aparılmır. Küçədəki bütün sahibsiz it və digər heyvanlar dövlət tərəfindən tapılıb müayinə edilir, vaksinasiya olunur. Küçə itlərinin qulaqlarına xüsusi nişanlar vurulur ki, bu da həmin heyvanın nəzarətdən keçdiyinə işarədir. Sahibsiz heyvanlarla qeyri-insani davrananlar ciddi cərimə olunurlar.

Və yaxud da sahibsiz itlərin məhv edilməsi üçün səssiz tapançalardan istifadə edilir. Belə tapançalar vasitəsilə itlərin bədənlərinə xüsusi dərmanlar vurulub zərərsiz hala gətirilir və tutularaq ətraf ərazilərə aparılır.

Bəs Azərbaycanda vəziyyət necədir? Ölkəmiz 2007-ci ilin mayında Heyvan Hüquqlarının Qorunmasına dair Avropa Konvensiyasına qoşulub. Heyvanlarla amansız davranıb onları şikəst edən və ya öldürən şəxslər İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulan qaydalara görə 500 manatadək cərimə edilir.

**Dövlət Baytarlıq Nəzarəti Xidmətinin mətbuat xidmətinin rəhbəri Yolçu Xanvəli "Yeni Müsavat"a açıqlamasında bildirib ki, hazırda sahibsiz heyvanların mühafizəsi qanunvericilikdə nəzərdə tutulan qaydalara uyğun həyata keçirilir:** "Sahibsiz heyvanlara qarşı mübarizə çərçivəsində cari ildə ilk dəfə olaraq peyvəndlənmə həyata keçirdik. Layihə bu ilin mart ayında yekunlaşdı. Sahibsiz heyvanların çoxluq təşkil etdiyi yerlərdə xüsusi qidalar qoyub, onların tərkiblərinə vaksinlər yerləşdirdik. Təxminən 10-15 gündən sonra hesabat verildi ki, həmin qidalar ətrafda olan bütün itlər tərəfindən qəbul edilib. Təxminən bu minvalla 50 min heyvan peyvənd edildi. Sahibli heyvanlarla birgə bu say 250 mindir. Sahibli itlər hər il qeydiyyatdan keçirilir və quduzluğa qarşı vaksinasiyası aparılır".



**Yolçu Xanvəli itləri amansızcasına əhalinin gözü qarşısındaca güllələyənləri qınayıb:** "Bu, qətiyyən yolverilməzdir və qeyri-insani hərəkətdir. Üstəlik, ölkəmiz Avropa Konvensiyasına qoşulub. İtlərin qəddarcasına öldürülməsi, sağlamlıqlarına xəsarət yetirilməsi qadağan olunub. Sahibsiz it yalnız xəstə olduğu zaman öldürülməlidir. Xəstə olmadığı halda isə onları tutub xüsusi ərazilərə aparmaq lazımdır".

Qeyd edək ki, bir sıra ölkələrdə sahibsiz itlər üçün xüsusi poliqonlar yaradılıb ki, bunun da nəticəsində yiyəsiz heyvanlar tutulub həmin poliqonlara yerləşdirilir. Orada heyvanlar tez-tez həkim nəzarəti altında olur, quduzluğa qarşı iynələr vurulur. Müəyyən vaxtda isə qocalıb əldən düşən heyvanlara iynə vurularaq öldürülür və müəyyən ərazilərdə cəsədləri yandırılır.

Bəs ölkəmizdə də bu cür poliqon fəaliyyət göstərirmi?

**Yolçu Xanvəlinin sözlərinə görə bu yöndə artıq işlər görülməkdədir:**

"İş adamları bu məsələdə köməkilk göstərməlidir. Hazırda heyvanları qoruyan özəl təşkilat və sığınacaqlar var ki, bu da kifayət etmir. Çünki orda yalnız 200-300 baş heyvan saxlamaq mümkündür".

**Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin Xüsusi təhlükəli infeksiyalar şöbəsinin müdiri Elmira Əliyeva bildirdi ki, yalnız xəstə olan itlər öldürülə bilər:** "Sahibsiz Heyvanlara Qarşı Mübarizə İdarəsinin əməkdaşlarının fəaliyyəti nəticəsində it dişləmələrinin sayı xeyli azalıb. Ötən illərə nisbətən bu il mərkəzimizə az sayda müraciətlər olub. Əhalinin özü də artıq belə bir hadisə olan zaman nə edəcəklərini bilirlər. Belə ki, onlar tez bir zamanda tibb məntəqələrinə müraciət edir və onlara peyvəndlər, quduzluğa qarşı zərdablar vurulur. Uşaqlar və böyüklər üçün peyvəndlər fərqli olur. Sahibli itlərin də adam dişləməsi halları var. Lakin bu itlər daim həkim nəzarəti altında olduğundan onların dişləmələri təhlükəli olmur. Amma hər ehtimala qarşı dişləyən iti 10 gün nəzarətdə saxlayırlar. İt bu müddət ərzində ölərsə, deməк, xəstə imiş. Hələ ki bu günəcən ev itləri arasında quduzluğa yoluxmuş heyvan aşkarlanmayıb. Sadəcə, xəsarət yetirən ev heyvanları ilə davranışları dəyişmək lazımdır. İtlərlə amansız davranışı pisləyirik. Yalnız xəstə it öldürülə bilər".

Xatırladaq ki, ölkəmizdə son illərdə sahibsiz heyvanları qoruyan, onlara qayğı göstərən idarə və sığınacaqlar yaradılıb. Onlardan biri də Sahibsiz Heyvanlara Qayğı İctimai Birliyidir. 2012-ci ildə yaradılan təşkilat sahibsiz heyvanlar üçün Abşeron rayonunun Pirəkəşkül kəndində sığınacaq açıb. Sahibsiz itlər küçələrdən tutularaq bura gətirilir, onlara peyvəndlər, xüsusi dərmanlar vurulur. Hətta gözəgəlimli itlər himayəyə də götürülür.

❑ Xalidə GƏRAY

# "Bankların sayı yenə azalacaq"

## "Bankların sayının 35-ə düşməsi də istisna deyil"

**"Mərkəzi Bank yenə də inzibati metodlara əl atmalı oldu". Ekspert Samir Əliyev biznes və istehlak kreditlərinin faktiki illik faiz dərəcələri üçün yuxarı həddin müəyyənləşdirilməsinə münasibət bildirərkən belə deyib. "Manat əmanətlərinin bahalaşması və komisyon haqlarının 1 faizə salınması fonunda milli valyuta kreditlərində müşahidə edilən bahalaşmaya qarşı Mərkəzi Bankdan növbəti cavab tədbiri gəldi.**



Biznes və istehlak kreditlərinin faktiki illik faiz dərəcələri, FİFD üçün yuxarı hədd müəyyənləşdirildi. Bundan sonra banklar və bank olmayan kredit təşkilatları müştərilərə biznes kreditlərini 25 faizdən, istehlak kreditlərini isə 29 faizdən baha verə bilməyəcək. Mərkəzi Bank yenə də inzibati metodlara əl atmalı oldu. Halbuki "Banklar haqqında" Qanunun 36-cı maddəsinə görə, hər bir bank müştərilərlə bağladığı müqavilədə xidmət şərtlərini, o cümlədən faiz dərəcələrini, komisyon haqlarını müəyyən etməkdə sərbəstdir. İqtisadi yolla banklara zəruri dəstəyi verə bilməyən Mərkəzi Bank son dövrlər tez-tez inzibati metodlardan yararlanmağa can atır".

**Ekspertin sözlərinə görə, Mərkəzi Bankın qeyri-rəsmi tapşırığı daha çox sosial gərginliyin azaldılmasına hesablanıb və bu, devalvasiyadan sonra "reanimasiyaya" düşmüş banklar üçün süni nəfəs borusunun daha da daraldılması deməkdir:** "Tənzimləyici qurumun son davranışları onu göstərir ki, bank sektorunda təmizləmə əməliyyatı başlayıb. Güman etmək olar ki, "EvroBank" ASC və "Azərbaycan Kredit Bankı" ASC sonuncu "qurban" olmayacaq. Əksinə, bu, bankların sayının azaldılması prosesinin ilk "qurban"larıdır. Mərkəzi Bank kiçik bankların bazardan çıxarılmasında israrlı görünür və hiss olunur ki, bu barədə artıq siyasi qərar var. Mətbuata açıqlamasında Elman Rüstəmovun əhalini dolayısı ilə kiçik banklara əmanət qoymaqdan çəkindirməsi də buna işarədir. Yaxın dövrdə bankların sayı 40-dan aşağı düşə bilər. Onların sayının 35-ə düşməsi də istisna deyil. Ayrı-ayrı banklarda vəziyyətin həddindən artıq ağır olması barədə siqnallar gəlməkdədir. Məhdud müştəri kontingenti, daxili investisiyaların azalması, büdcə pullarının məhdudlaşdırılması, əhalinin gəlirlərinin azalması bankların sayının optimallaşdırılması məsələsini yenidən gündəmə gətirib. Mərkəzi Bank banklara "yaxşı" və "pis", "böyük" və "kiçik" meyarları tətbiq etməklə onlara qarşı diskriminasiya tətbiq edəcək və münasib bildiyi bankla işləyəcək. Bəzi bankları ucuz resursla təmin etdiyi halda ağır prosedurlar vasitəsilə digərlərini dəstəkdən kənarda qoyacaq.

Konsolidasiya tədbirləri bank olmayan kredit təşkilatlarını da vuracaq. Komisyon haqlarının 1 faizə salınması və faktiki illik faiz dərəcələri üçün yuxarı limitin tətbiqi ilk zərbəni bank olmayan kredit təşkilatlarına vuracaq. Məhz bank olmayan kredit təşkilatlarında kredit faizləri banklarla müqayisədə daha yüksəkdir. Bu kredit təşkilatlarında illik faiz dərəcəsi hətta 40 faizə çatır. Onların kredit portfeli də məhduddur. Bank olmayan kredit təşkilatlarının əsas üstünlüyü onun resurslarına əlçatanlığın asan olmasıdır. Onlar həm də banklardan fərqli olaraq kənd yerlərində, o cümlədən cəbhə bölgəsinə yaxın ərazilərdə işləyirlər. O yerlərə ki, banklar qəti maraq göstərmir. Onlar müştərinin qapısına getməkdən belə çəkinmirlər. Hazırda ölkədə bank olmayan kredit təşkilatlarının sayı 157-dir və onların kredit portfeli ümumilikdə 591 milyon manata yaxındır. Ölkə üzrə kredit qoyuluşunun 2,9 faizi bu təşkilatların payına düşür. Banklarda son aylarda kredit qoyuluşunun azalmasına rəğmən bank olmayan kredit təşkilatlarında zəif də olsa, artım müşahidə edilir. Tezliklə bu təşkilatların sayının azalması qaçılmaz olacaq".

**S.Əliyev vurğulayıb ki, ikinci devalvasiya bank sektoru üçün dağıdıcı olacaq:** "Elə birincinin fəsadları hələ də aradan qalxmayıb. Onun təsirini minimuma endirmək üçün bankların konsolidasiyasına başlanıb. Əsas məsələ konsolidasiya zamanı yüksək təmərküzləşməyə imkan verməməkdir. Hazırda təmərküzləşmə səviyyəsi 55 faizdir. Ancaq tək bu addım kifayət etməyəcək. Mərkəzi Bankın dəstəyi ilə yanaşı bankdankənar problemlər aradan qaldırılmalıdır. Əks halda, konsolidasiyanın də səmərəsi olmayacaq".

❑ RÖYA

YENİ MÜSAVAT

Son səhifə

N 157 (6185) 22 iyul 2015



## Romanın simgəsini siçanlar ələ keçirib

İtaliyanın paytaxtı Romanın tarixi əsərlərindən biri olan və "Eşq bulağı" kimi tanınan Trevi bulağı siçanların hücumuna məruz qalıb. İtalyan memar Nikola Salvinin Romadakı Poli Sarayının bir tərəfində inşa etdiyi 1735-ci ildə açılan və o gündən bu yana Romaya ilk dəfə gələnlərin getdiyi Eşq Bulağında indi siçanlar gəzişir. "Cirriere della Sera" qəzetinin xəbərinə görə, 18-ci ildən bu yana düzəldilən bulaq bir firma tərəfindən təmir üçün bağlanıb. Aylardır su keçməyən borularda hazırda siçanlar gəzir. Bulağın ətrafında yaşayanlar siçanların restoranlara və evlərə girməlırindən şikayət edirlər. 2 milyon avroluq təmir işləri başa çatdıqdan sonra bulaq yenidən çalışacaq.



## Xərçəng üçün yeni ümid

Alimlər bədənin immunitetini gücləndirmək üçün istifadə edilən yeni dərmanın qan xərçənginin inkişafını və ölümə səbəb olma riskini üçdə birə qədər azaltdığını deyirlər. "New England Journal of Medicine" adlı jurnalda yayımlanan məlumatlara görə, "Elotuzumab" adı verilən dərman xərçəng xəstələri üçün istifadə edildiyi zaman immuniteti gözlə görüləcək dərəcədə gücləndirib. Dərman xərçəngli hüceyrələrdəki "Slame 7" hüceyrəsini hədəfləyir, onlara yapışaraq bakteriyaların məhv olmasına səbəb olur. Mütəxəssislərin sözlərinə görə, dərman müalicədə istifadə edildiyi zaman xəstələrin ölüm riski xeyli azalır və uzun yaşamalarına kömək edir.

# Həbsdən qaçdı, qəhrəman oldu

**Həbsdən qaçan Meksikanın məşhur narkotik dəstəsinin lideri "El Chapo" ləqəbli Joaquin Guzmanın şəkillərinin çap edildiyi köynəklər son zamanlar dəbə minib.**

"Perdiem Clothing", "Inked", "Kartel", "Kollection" və "Streetwise" kimi moda markaları El Chaponun üzərində şəkli olan paltarları satır. "Streetwise" firmasının satış meneceri ola Angel Rodriguez Guzman paltarlarının çox satıldığını deyib.

Məlumat üçün bildirək ki, Guzman 11 iyun gecəsi bu günədək heç kəsin qaça bilmədiyi bir həbsxanadan qaçmışdı.




# Yemişin faydaları nədir?

**Yaz aylarında tez-tez istifadə etdiyimiz meyvələr arasında yer alan yemişin sağlamlığımıza olan faydasını saymaqla bitmir. Yemişin insan orqanizmi üçün ən gözəl faydaları aşağıdakılardır:**

Bədəni sərinlədir.

Sidik qovucudur.

Qəbizliyi aradan qaldırır.

Revmatizm və babasil ağrılarını azaldır.

Böyrəkləri təmizləyir.

Böyrək daşlarını və qumlarını tökməyə köməkçi olar.

Sakitləşdirici təsiri ilə rahatlıq verir və yuxusuzluğa qalib gəlir.

Dərinin təzə görünməsini təmin edir.

Tumları döyülüb suda qaynadıldıqdan sonra əldə edilən su içildiyi zaman sinə ağrısı və öskürəyə qarşı kömək edir.

Yanıqlara yemiş qoyulsa, ağrını yüngülləşdirər və yaxşılaşmasını sürətləndirər.

Dəri üçün də faydalı bir qida olan yemiş əzilib soyuq südə qatıldıqdan sonra üzə sürtülərsə, dərini nəmləndirər. Xüsusilə quru cildlərə çox faydalıdır.

Yemiş tam olaraq yetkinləşmədən yeyilməməlidir. Mədə xorası və həzm sistemi iltihabı olanlara yemiş yemək tövsiyə edilmir.





## UNO ilə əlaqə qurmağa 100 milyon

Mail.ru şirkətlər qrupunun həmtəsisçisi Yuri Milner Yerdən kənar sivilizasiyaların axtarışı layihəsinə 100 milyon dollar yatıracaq. Bu barədə xəbəri "Vedomosti" qəzeti yayıb. Milner qəzetə müsahibəsində deyib ki, onun layihəsinin başlıca məqsədi Yerə kosmosdan daxil ola biləcək mümkün siqnallar barədə informasiyanı toplamaq, işləmək və yaymaqdır. Milner layihəni öz şəxsi vəsaiti hesabına maliyyələşdirmək niyyətindədir, çünki onun sözlərinə görə, dövlətlər belə layihələrə pul ayırmaq istəmirlər. O, tədqiqat işinə lazım olacaq teleskopları və kompüter şəbəkələrini icarəyə götürəcək. Layihə iştirakçıları daha kiçik siqnallara malik daha çox ulduz və qalaktikanı daha geniş diapazonda araşdırmağı düşünürlər. Layihə sayəsində bu sahədə aparılan araşdırma işlərinin miqyasının yüz dəfədən çox artacağı gözlənilir.




**QOÇ** - Bütün enerjinizi fəaliyyət prinsipinə istiqamətləndirin. Çünki gələcək perspektivləriniz iyulun bu təqvimindən birbaşa asılı olacaq. Pul sövdələşmələrində ötkəm olun.

**BUĞA** - Hiss olunur ki, maddi durumunuz qənaətbəxş deyil. Bu isə əksər sahələrdə passivliyinizə zəmin yaradır. Buna baxmayaraq, nahardan sonra ikitərəfli əməkdaşlıq üçün şanslarınız olacaq.

**ƏKİZLƏR** - Ulduzların düzümü səhhətinizlə bağlı bəzi problemlərlə rastlaşacağınızdan xəbər verir. Bu səbəbdən də orqanizminizə zidd işlərdən yayınmalısınız. İşgüzar əlaqələrə başlayın.

**XƏRÇƏNG** - İşgüzar sövdələşmələr aparmaq istəyirsinizsə, bürcünüzün bu son təqvimindən yararlanın. Əmin olun ki, hər şey ürəyinizcə olacaq. Sadəcə, qərarlarınızda reallığa əsaslanın.

**ŞİR** - İyulun bu gününü uğurlu keçirəcəksiniz. Şəxsi işlərinizdə dönüş yaratmaq üçün saat 15-dən sonra şanslarınız olacaq. Büdcənizi artırmaq istəyirsinizsə, əzmkarlığınızı artırın.

**QIZ** - Ay bürcünüzdə olduğu üçün o qədər də uğurlu gün deyil. Bir tərəfdən ətrafınızda lazımi adamların olmaması, digər tərəfdənsə əsəbi situasiyalar ovqatınızı korlaya bilər. Təmkindən qidalanın.

**TƏRƏZİ** - Saat 13-ə qədər ev şəraitində olmağınız vacibdir. Riskli iş görmək, səfərə çıxmaq yolverilməzdir. Əks təqdirdə, əsəbi məqamlar yaşayacaqsınız. Axşamsa qonaqlıq gözlənilir.

**ƏQRƏB** - Təxminən saat 15-ə qədər ümumi ovqatınız xoş olacaq. Ünsiyyətdə olduqlarınız sizi anlayacaq. Sonrakı müddətdə isə ciddi və böyük mübahisələr gözlənilir. Yaxşı olar ki, səfərə çıxasınız.

**OXATAN** - Ümumi gərginliyinizə baxmayaraq çıxış yolu tapmağa davam etməlisiniz. Hər şeyi dəqiqliklə ölçüb-biçməli, ağıllı məsləhətlərə qulaq asmalısınız. Uzaq səfərlərə çıxmağa dəyər.

**OĞLAQ** - Yeni əlaqələr yaratmaq üçün ideal ərəfədir. Çox güman ki, bir neçə yeniliyin şahidi olacaqsınız. Sevindirici təkliflər də labüddür. Nahardan sonra səfərə çıxmağa dəyər.

**SUTÖKƏN** - İstifadə etdiyimiz bütün astroloji mənbələr bu təqvimi bütünlüklə səfər və qonaqlıqlara həsr edəcəyinizi göstərir. Yeni müsahiblərinizə qarşı bir qədər mülayim davranın.

**BALIQLAR** - Yaxşı olar ki, heç bir ciddi işə baş qoşmayasınız. Əks təqdirdə, uğursuz cəhdlərlə rastlaşacaqsınız. Bununla yanaşı, sizə qarşı qərəz nümayiş etdirənlərə kəskin cavab verməyi də təxirə salın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Su altında 72 saat yaşadı



**Su altında 72 saat yaşayaraq dünya rekordu qıran "Akvarium adam" ləqəbli dalğıc Cem Karabay vaxt keçirmək üçün nərd oynayıb. C.Karabay üçüncü dəfə su altında rekord qırıb. Suyun altına girdikdən sonra 6 metr dərinlikdə üç gün yaşayan Karabay bu müddətdə futbol və nərd oynayıb. Bu müddətdə dalğıc şaftalı kababı və pendir də yeyə bilib.**

Məlumat üçün bildirək ki, misirli dalğıc Valaa Hafez də 51 saat 24 dəqiqə dəniz altında qalmaqla rekord qırmışdı.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300